# ELM

Qüvvət elmdədir...
Nizami Gəncəvi

НАУКА
Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE
Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

№ 07 (1489) ❖ Cümə, 20 fevral 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Bakı və Belqrad arasında strateji müttəfiqlik möhkəmlənir

## Prezident İlham Əliyev Serbiya Respublikasına rəsmi səfər edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Serbiya Respublikasına rəsmi səfər edib.**

Belqrad şəhərinin Nikola Tesla Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsinin düzüldüyü təntənəli mərasimdə Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Serbiya Prezidenti Aleksandar Vuçiç qarşılayıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət ediblər. Dövlətimizin başçısı abidələrin önünə əklil qoyub.

Həmin gün dövlət başçılarının təkbətək görüşü keçirilib. Prezident İlham Əliyevin və Prezident Aleksandar Vuçiçin iştirakı ilə Azərbaycan-Serbiya sənədlərinin mübadiləsi mərasimi olub.

Sonra Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası keçirilib.

Prezident Aleksandar Vuçiç hər iki dövlət arasında Strateji Tərəfdaşlıq Şurasının ilk iclasını açmaqdan şərəf hissi duyduğunu qeyd edərək, görüşün və Şura iclasının xüsusi rəmzi əhəmiyyət daşıdığını, Serbiya Respublikasının ən mühüm milli bayramı günündə - Dövlətçilik Günündə keçirildiyini bildirib.

Prezident Aleksandar Vuçiç iclası ikitərəfli münasibətlərimizdə dönüş nöqtəsi və ölkələrimiz arasında münasibətlərin ən yüksək strateji səviyyəyə qaldırılması üçün birgə siyasi iradənin bariz nümunəsi kimi qiymətləndirib.

"Yaxın zamanlarda Belqrad və Bakı arasında birbaşa uçuşları açacağıq və aramızdakı təmaslar əvvəlki dövrlə müqayisədə daha sıx olacaq. Eyni zamanda, mədəniyyət, idman, iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, hərbi-texniki əməkdaşlıq kimi müxtəlif sahələrə gəldikdə, tam əminəm ki, bizim əlaqələr dünyanın istənilən iki ölkəsi arasında mümkün münasibətlərlə müqayisədə daha genişdir... Bilirəm ki, biz Azərbaycandan çox yaxşı işlər gözləyə bilərik və inanıram ki, Azərbaycan xalqı hər zaman Serbiyadan və Serbiya xalqından yalnız yaxşı işləri gözləyə bilər. Serbiya nazirlərindən xahiş edərdim ki, onlar azərbaycanlı tərəfdaşlarımız kimi ürəkdən çalışsınlar. Sizə işinizdə uğurlar arzu edirəm",- deyə Prezident Aleksandar Vuçiç vurğulayıb.

Serbiya Prezidenti yaxın vaxtlarda Azərbaycana səfər edəcəyini də bildirib.

Göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirən Prezident İlham Əliyev dəvətə görə təşəkkürünü bildirib. Serbiyanın Dövlətçilik Günü münasibətilə həmkarını təbrik edib.

Dövlətimizin başçısı Balkanlar, Cənubi Qafqaz və daha geniş coğrafiyada proseslərin sürətlə dəyişdiyini, gözlənilməz ssenarilərin artdığını diqqətə çatdırıb. O, qarşıya qoyulan hədəflərə maksimum dərəcədə nail olmaq üçün mütəmadi fikir mübadiləsinin aparılmasının və baş verən hadisələrin birgə təhlil edilməsinin vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev Strateji Şuranın ilk iclasını iki dost ölkə arasındakı yüksək səviyyəli tərəfdaşlığın bariz nümunəsi kimi dəyərləndirib. Dövlətimizin başçısı nümayəndə heyətinə Prezident Aleksandar Vuçiçin Azərbaycana gözlənilən səfərinədək bütün razılaşmaların qısa müddətdə və maksimum ciddiyyətlə icra olunması barədə tapşırıqlarını verib.

Prezident İlham Əliyev Serbiya ilə tərəfdaşlığın artıq siyasi müstəvidən strateji iqtisadi layihələrə keçdiyini bildirərək, enerji sektorunda qaz sahəsində əməkdaşlıqdan elektrik enerjisi istehsalı mərhələsinə keçməsini yüksək qiymətləndirib. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycandan Serbiyaya qoyulacaq bu investisiya həm iqtisadi səmərəliliyin, həm də hər iki dövlət arasında mövcud tərəfdaşlığın və siyasi etimadın əyani sübutudur.

İclasda hökumətlərarası komissiyaların sədrləri və digər aidiyyəti nazirlər məruzələrlə çıxış ediblər. Azərbaycanla Serbiya arasında energetika, investisiyalar, bərpaolunan enerji, turizm, kənd təsərrüfatı, mədəniyyət və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Dövlət başçıları bu istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi, konkret layihələrin təqdim olunması ilə əlaqədar tapşırıqlar veriblər. Həmçinin Bakı-Belqrad aviareyslərinin bu ilin mayından başlayacağı qeyd olunub, bunun ölkələrimiz arasında humanitar təmasların və turizmin inkişafına töhfə verəcəyinə ümidvarlıq bildirilib.

Sonra prezidentlər Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasının Qərarını imzalayıblar.

Belqradda dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Serbiya Prezidenti Aleksandar Vuçiç bəyanatında Prezident İlham Əliyevin dövlətçilik təcrübəsindən böyük örnək götürdüyünü və iki ölkə arasındakı strateji tərəfdaşlığın yeni bir mərhələyə qədəm qoyduğunu vurğulayıb. O, son illərdə ticarət dövriyyəsinin artmasını və imzalanan yeni sənədlərin əməkdaşlıq üçün möhkəm hüquqi zəmin yaratdığını xüsusi qeyd edib. İki ölkənin enerji təhlükəsizliyi sahəsində mühüm addım ataraq, 500 meqavatlıq yeni elektrik stansiyasının inşası barədə razılığa gəldiyini deyib. Serbiya Prezidenti bəyanatında iqtisadi əlaqələrin kənd təsərrüfatı, hərbi-texniki və süni intelekt sahələrinə qədər genişləndirilməsi, habelə birbaşa uçuşların açılması ilə xalqlararası təmasların və turizmin sürətləndirilməsi prioritet vəzifə kimi müəyyən edildiyini bildirib.

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

Dövlətimizin başçısı Serbiya xalqını Dövlətçilik Günü münasibətilə təbrik edərək, Prezident Aleksandar Vuçiçin uzaqgörən liderliyi sayəsində ölkənin iqtisadi və sosial sahədə böyük uğurlar qazandığını vurğulayıb. Qeyd edib ki, gələcək planlarımız həm siyasi, həm iqtisadi, həm də energetika sahəsində əlaqələrimizi daha da gücləndirmək, beynəlxalq platformalarda, beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmək, birgə sərmayə layihələrini həyata keçirmək, energetika və nəqliyyat sahələrində yeni yaranmış imkanlardan yararlanaraq, daha irəliyə baxaraq çox güclü bir sinergiya yaratmaqdır. Prezident İlham Əliyev qeyd edib ki, Serbiyadakı əlverişli investisiya mühiti Azərbaycanın bu ölkəyə daha böyük həcmdə sərmayə qoymasına, xüsusilə enerji təhlükəsizliyini gücləndirən stansiyaların inşasına zəmin yaradır. Azərbaycanın 2032-ci ilə qədər bərpaolunan mənbələr hesabına əlavə 8 giqavat enerji gücü əldə edəcəyini bildirən dövlətimizin başçısı, bu potensialın Avropa bazarına çıxarılmasında Serbiyanın mühüm tərəfdaş olacağını diqqətə çatdırıb. Sonda səmimi qonaqpərvərliyə görə təşəkkür edən İlham Əliyev rəsmi səfərin nəticələrinin tezliklə özünü göstərəcəyinə və cari il ərzində keçiriləcək növbəti görüşlərin dostluq münasibətlərinin daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri fevralın 16-da başa çatıb.

# Prezident İlham Əliyevin "Azərbaycanın yeni rəqəmsal arxitekturası" üzrə vahid fəaliyyət planının müddəaları və Milli Elmlər Akademiyasının vəzifələri



**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, eləcə də AMEA-nın Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi müəssisə və təşkilatların direktorları, həmçinin AR Mədəniyyət Nazirliyinin, Bakı Yunus Əmrə İnstitutunun nümayəndələri və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə AMEA-nın müxbir üzvü Amin İsmayılova AMEA-nın Fəxri fərmanı təqdim olunub.

İclasda müzakirəyə çıxarılan ilk məsələ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanın yeni rəqəmsal arxitekturası" üzrə vahid fəaliyyət planının müddəaları və Azərbaycan Milli Elmlər Akademiyasının vəzifələri haqqında olub.

Məsələ ilə bağlı çıxış edən **akademik İsa Həbibbəyli** bildirib ki, ölkə başçısının sədrliyilə 11 fevral 2026-cı ildə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib. Müşavirədə çıxış edən Prezident İlham Əliyev rəqəmsal inkişafı ölkənin gələcək tərəqqisini müəyyən edən əsas strateji istiqamət kimi müəyyənləşdirib və vurğulayıb ki, süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması və rəqəmsallaşma prosesləri qlobal miqyasda ölkələrin inkişaf modelini formalaşdırır və Azərbaycanın da bu tendensiyalara uyğun hərəkət etməsi vacibdir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, müasir dünyada rəqəmsal arxitekturanı qurmadan hər hansı bir inkişafa nail olmaq qeyri-mümkündür və bu istiqamət dövlətimizin başçısının fəaliyyətində strateji istiqamətlərdən birini təşkil edir. Natiq bildirib ki, Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə ardıcıl olaraq "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 - 2027-ci illər üçün Strategiyası", "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası" və digər mühüm dövlət sənədləri qəbul olunub. 4-cü Sənaye İnqilabında ölkəmizin mövqeyinin gücləndirilməsi və aparıcı dövlətlər sırasında yer almasının təmin edilməsi məqsədilə bir sıra mühüm addımların atıldığını deyən akademik İsa Həbibbəyli AR İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzdində isə Süni İntellekt Akademiyasının fəaliyyət göstərdiyini bildirib.

Milli Elmlər Akademiyasında da rəqəmsallaşma istiqamətində bir sıra əhəmiyyətli işlərin həyata keçirildiyini deyən akademik İsa Həbibbəyli AMEA rəhbəri seçilməsindən cəmi 3 ay sonra, 2023-cü ilin yanvar ayında Akademiyanın Rəyasət Heyətinin aparatında dövlətimizin və müasir dünyanın çağırışlarına uyğun olaraq, "Elektron Akademiya" şöbəsinin yaradıldığını diqqətə çatdırıb. Həmçinin həmin dövrdə AMEA-nın elmi müəssisə və təşkilatlarında da "Elektron xidmətlər" şöbələrinin yaradıldığını, ilkin olaraq kadr bazalarının formalaşdırıldığını söyləyib. Ötən müddət ərzində Akademiyada rəqəmsallaşma, süni intellekt texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişlənməsi istiqamətində bir çox uğurlar əldə olunduğunu deyən akademik İsa Həbibbəyli yaranmış yeni reallıq şəraitində 2025-ci ilin sentyabr ayında "Elektron Akademiya" şöbəsinin adının "Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər" olaraq dəyişdirildiyini vurğulayıb.

"Bu, sadəcə şöbənin adının dəyişikliyi deyil, onun funksiyalarının, fəaliyyətinin, əhatə dairəsinin genişliyini ehtiva edir", - deyən akademik İsa Həbibbəyli dövlətimizin başçısının AMEA-nın 80 illik yubiley yığıncağındakı nitqində rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizliklə bağlı tapşırıqlarından və bu ilin 5 yanvarında yerli televiziya kanallarına müsahibəsi zamanı səsləndirdiyi fikirlərdən irəli gələrək 8 yanvar 2025-ci ildə AMEA-nın Rəyasət Heyətinin qərarı ilə elmi müəssisə və təşkilatlardakı "Elektron xidmətlər" şöbələrinin bazasında "Rəqəmsal elm sahəsi və süni intellekt" şöbələrinin yaradıldığını bildirib. Qeyd edib ki, həmçinin şöbələr köməkçi statusundan əsas şöbə statusuna keçirilib və artıq şöbələrin rəhbərliyində elmi işçilər təmsil olunur.

Görülən işlərlə AMEA-nın rəqəmsal arxitekturasının ilkin modelinin formalaşdırıldığını vurğulayan akademik İsa Həbibbəyli ikinci mərhələdə bu istiqamətdə kadr hazırlığı ilə bağlı fəaliyyət planının qurulacağını diqqətə çatdırıb.

Natiq bildirib ki, dövlət başçısının müşavirədə vurğuladığı kimi, rəqəmsallaşma fəaliyyətimizdə başlıca prioritet istiqamət olmalı və ardıcıl, fasiləsiz xarakter daşımalıdır.

"Cənab Prezidentin sədrliyi ilə keçirilən müşavirədə səsləndirdiyi fikirlərdən irəli gələrək Akademiyanın yeni rəqəmsal arxitekturasını necə qurmalıyıq? İlk növbədə, Akademiyanın prezidenti bu işə maraqlı olmalı, onu strateji vəzifələrdən və əsas prioritetlərdən biri hesab etməlidir. Artıq qeyd etdiyim kimi, 2023-cü ilin yanvarından elektron xidmətlər sahəsində geniş işlər həyata keçirmişik. Ötən müddətdə AMEA əməkdaşlarının elmmetrik məlumatlar bazasını yaratmış, istinad sistemi qurmuşuq. Həmçinin jurnallarımızın elektron bazalarını formalaşdıraraq artıq bütün müəlliflərimizin məqalələrinə DOİ veririk. Eyni zamanda biri beynəlxalq konfrans olmaqla, mütəmadi olaraq bu istiqamətdə seminarlar keçiririk. O cümlədən "Elektron Akademiya" şöbəsi tərəfindən "Humanoid SUFİ" (Sözlərin Universal Funksionallıqla İşlənilməsi) robotu hazırlanıb. AMEA rəhbəri Akademiyada, direktorlar isə müəssisələrində rəqəmsal arxitekturanın qurulmasına məsuliyyət daşıyırlar. Müəssisələrdəki "Rəqəmsal elm sahəsi və süni intellekt" şöbələri bu arxitekturanın əsas icraçı qollarıdır", - deyə akademik İsa Həbibbəyli vurğulayıb.

Bu istiqamətdə mühüm nəticələrin əldə edilməsində kadr hazırlığı və maddi-texniki bazanın qurulmasının xüsusi əhəmiyyət kəsb etdiyini bildirən AMEA rəhbəri elmi müəssisələrin zəruri avadanlıqlarla təchiz olunması məqsədi ilə müvafiq maliyyə vəsaitinin ayrıldığını söyləyib. Qeyd edib ki, institutların direktorları, elektron şöbələrin müdirləri dövlət başçısının rəqəmsallaşma ilə bağlı qarşıya qoyduğu vəzifələri, bu arxitekturanın qurulması istiqamətində aparılacaq işlərin mahiyyətini düzgün öyrənməlidirlər.

"Bu, 21-ci əsrin çağırışı, 4-cü Sənaye inqilabının tələbidir. Bu texnoloji düşüncə, texnoloji inkişaf, texnoloji baxış, texnoloji nailiyyət olmadan, 21-ci əsrdə millətlər sırasında, akademiyalar sırasında dünya miqyasında sayılmaq, sıravi bir nəfər olmaq belə çətindir. Ona görə də, cənab Prezidentin Azərbaycanın yeni rəqəmsal arxitekturasının qurulması layihəsi, əslində Azərbaycanın inkişafının indiki yeni mərhələsinin arxitekturası kimi başa düşülməlidir.

Dövlət başçısının bu istiqamətdə işlərin daha səmərəli təşkili üçün hər bir qurumda rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə bir müavin ayrılmasını tapşırdığını deyən akademik İsa Həbibbəyli həmin şəxsin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə koordinasiyalı şəkildə çalışaraq əldə etdiyi bilikləri, yenilikləri növbəti mərhələdə çalışdığı müəssisədə tətbiq edəcəyini bildirib. Diqqətə çatdırıb ki, AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev bu sahə üzrə ölkəmizdə tanınmış alimdir, İnformasiya Texnologiyaları İnstitutuna rəhbərlik edir və rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə Akademiyada bundan sonra da həyata keçiriləcək işlərə nəzarət edəcək. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə əlaqəli şəkildə isə "Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər" şöbəsinin müdiri riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov fəaliyyət göstərəcək.

Həmçinin akademik İsa Həbibbəyli "Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər" şöbəsinin əməkdaşları tərəfindən AMEA-nın elmi müəssisələrindəki "Rəqəmsal elm sahəsi və süni intellekt" şöbələrinin əməkdaşlarına təlimlər keçməsi barədə tapşırıq verib.

Akademik İsa Həbibbəyli görülən işlərlə yanaşı, son illərdə AMEA-da elektron kitabxana, elektron arxiv və elektron sənəd dövriyyəsi quruculuğu istiqamətində də mühüm nailiyyətlərin əldə olunduğunu bildirib, Akademiyanın rəqəmsal arxitekturasının bundan sonra da genişləndiriləcəyini söyləyib.

Sonra AMEA-nın vitse-prezidenti **akademik Rasim Əliquliyev** çıxış edərək qeyd edib ki, dövlət başçısının sədrliyi ilə keçirilən müşavirə bu sahədə işlərin həyata keçirilməsində pərakəndəliyi aradan qaldıraraq idarələrarası koordinasiyalı fəaliyyətə təkan verəcək. Akademik Rasim Əliquliyev, həmçinin bu istiqamətdə normativ hüquqi bazanın vacibliyindən, Azərbaycan əhalisinin rəqəmsal savadlılığının təkmilləşdirilməsindən danışıb.

Daha sonra "Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər" şöbəsinin müdiri **riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov** çıxış edərək AMEA-da elektron xidmətlər sahəsində əldə olunmuş nailiyyətlərdən danışıb və hazırda icra olunan işlər barədə məlumat verib.

Müzakirələrdən sonra Rəyasət Heyətinin qərarı ilə dövlət başçısının sədrliyi ilə keçirilmiş müşavirədə irəli sürülmüş müddəalar və səsləndirilmiş yanaşmalar əsas götürülməklə, AMEA-da aparılan elmi tədqiqatlarda rəqəmsal texnologiyaların və süni intellektin tətbiqinin daha da gücləndirilməsi qərara alınıb. Həmçinin AMEA-nın elmi müəssisə və təşkilatlarında rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə müavin vəzifəsinə irəli sürüləcək namizədlərin uyğunluğunu yoxlamaq üçün Komissiya yaradılıb.

Daha sonra iclasda Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında" 28 yanvar 2026-cı il tarixli Sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbirlər planının təsdiq edilməsi məsələsinə baxılıb.

Tədbirlər planında "Xaqani Şirvani poeziyasının ədəbi-bədii xüsusiyyətləri və Azərbaycan və Şərq ədəbiyyatında yeri", "Xaqani Şirvaninin ideallar aləmi, sənəti və sənətkarlığı", "Xaqani Şirvani poeziyasında dünyəvilik", "Xaqani Şirvani 900 - Sələflər və xələflər: Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri", "Xaqani Şirvani Azərbaycan və Şərq folkloru kontekstində", "Söz mülkünün Xaqanı", "Xaqani Şirvani və XII əsr ictimai-mədəni mühiti", "Fəlsəfi şüur və şeir", "Klassik Azərbaycan ədəbiyyatının tanınmış siması: Xaqani Şirvani", "Nizami Gəncəvi və Xaqani Şirvani", "Klassik poeziyanın Şamaxıdan doğan günəşi: Əfzələddin Xaqani", "Xaqani Şirvani və Azərbaycan ədəbiyyatında intibah prosesləri" mövzusunda konfrans, elmi sessiya və dəyirmi masaların keçirilməsi, eləcə də "Xaqani Şirvaninin sənətkarlığı" monoqrafiyasının nəşri, Xaqani Şirvaninin qəzəl və qəsidələrinin filoloji tərcüməsinin çapa hazırlanması, ədibin həyat və yaradıcılığından bəhs edən biblioqrafik göstəricinin hazırlanması, ənənəvi və virtual sərginin təşkili əksini tapıb.

Müzakirələrdən sonra Rəyasət Heyətinin qərarı ilə Xaqani Şirvaninin 900 illik yubileyi ilə bağlı AMEA-nın Tədbirlər planı təsdiq edilib.

Daha sonra iclasda müzakirəyə çıxarılan məsələ Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələr haqqında olub. Akademik İsa Həbibbəyli bildirib ki, ölkə başçısının müvafiq Sərəncamına əsasən, Qurultayın türk xalqlarının ortaq tarixi-mədəni irsinin, elmi düşüncəsinin və humanitar inteqrasiyasının formalaşmasında müstəsna rolu xüsusi vurğulanaraq yubiley tədbirlərinin keçirilməsi tapşırılıb. Bundan irəli gələrək, Rəyasət Heyətinin müvafiq iclaslarında AMEA-nın Tədbirlər planı təsdiq olunub və Qurultayın yubileyinə hazırlığın yüksək səviyyədə təşkili məqsədilə akademik İsa Həbibbəylinin sədrliyi ilə komissiya yaradılıb.

Yubiley çərçivəsində tədbirlərin mərhələli şəkildə təşkilinin nəzərdə tutulduğunu deyən akademik İsa Həbibbəyli 27 fevral 2026-cı il tarixində "Birinci Türkoloji Qurultayın qurucuları və ənənələri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcəyini bildirib. Qeyd edib ki, bu tədbirdə Birinci Türkoloji Qurultayın təşəbbüskarlarının, aparıcı simalarının və elmi ideyalarının xatırlanması, Qurultayın formalaşdırdığı elmi-mənəvi ənənələrin müasir dövrdə davamı məsələlərinin müzakirəsi əsas məqsəd kimi müəyyən edilib.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, xatirə tədbiri çərçivəsində Birinci Türkoloji Qurultayın elmi irsinə və müasir türkoloji proseslərə həsr olunmuş geniş tərkibli elmi müzakirələrin və panel iclaslarının keçirilməsi nəzərdə tutulub.

"Hazırlıq prosesində beynəlxalq elmi əməkdaşlığa xüsusi önəm verilib. Tədbirlərdə Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Macarıstan, Rusiya Federasiyasının türk xalqları yaşayan regionları, eləcə də digər ölkələrdən olmaqla 50-yə yaxın Türk dünyasını təmsil edən nüfuzlu alim və elm xadiminin iştirakı planlaşdırılır. Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş tədbirlər AR Mədəniyyət Nazirliyi və AR Elm və Təhsil Nazirliyi ilə koordinasiyalı şəkildə həyata keçirilir. Yunus Əmrə İnstitutu, Türk Dil Qurumu və Xəzər Universiteti isə əsas tərəfdaş təşkilatçılar kimi iştirak edirlər. Bu qurumlarla əməkdaşlıq çərçivəsində elmi proqramın hazırlanması, məruzəçilərin və panel iştirakçılarının müəyyənləşdirilməsi, beynəlxalq tərəfdaşlarla koordinasiyanın təmin edilməsi, eləcə də tədbirlərin təşkilati və mədəni proqramının formalaşdırılması istiqamətində birgə fəaliyyət göstərilir", - deyə akademik İsa Həbibbəyli bildirib.

Eyni zamanda AMEA-nın elmi bölmələri və institutları tərəfindən Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş elmi konfransların, dəyirmi masaların və müzakirələrin təşkili, xüsusi nəşrlərin hazırlanması, Qurultayın stenoqramının və arxiv sənədlərinin elmi dövriyyəyə daxil edilməsi, eləcə də yubiley tədbirləri ilə bağlı materialların kütləvi informasiya vasitələrində işıqlandırılması istiqamətində sistemli işlər aparılır. Bu çərçivədə Birinci Türkoloji Qurultayın ideyalarının müasir Türk dünyası kontekstində elmi təhlili, ümumtürk dəyərləri və ortaq elmi yaddaşın formalaşdırılması məsələləri xüsusi diqqət mərkəzində saxlanılır.

Daha sonra **AR Mədəniyyət Nazirliyinin, Bakı Yunus Əmrə İnstitutunun və Xəzər Universitetinin nümayəndələri** çıxış edərək qeyd olunanlar barədə fikirlərini bildiriblər.

Rəyasət Heyəti tərəfindən qeyd olunan tədbirlərin yüksək səviyyədə təşkili ilə bağlı müvafiq qərar qəbul edilib.

Eyni zamanda iclasda AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin Yunanıstanın paytaxtı Afina şəhərində keçirilmiş Beynəlxalq Akademiyalar Birliyinin Təsis konfransında iştirakının yekunları haqqında məlumat dinlənilib.

Həmçinin akademik Tofiq Nağıyevin 85, akademik Faiq Bağırzadənin 100, AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevin 100 və AMEA-nın müxbir üzvü Tofiq Əliyevin 75 illik yubileyi haqqında qərarlar qəbul edilib.

İclasda qeyd olunan məsələlər ətrafında **akademik Rasim Əliquliyev, akademik Dilqəm Tağıyev, akademik İbrahim Quliyev, akademik Gövhər Baxşəliyeva, akademik Arif Həşimov** və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

# Medianın dili elmi müzakirə müstəvisində

**Fevralın 18-də AMEA-nın və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada ”Medianın dili elmi müzakirə müstəvisində” adlı konfrans keçirilib.**



Tədbirin əsas məqsədi kütləvi informasiya vasitələrində dil normalarına riayət olunması məsələlərini, eləcə də bu sahədə mövcud problemləri və onların aradan qaldırılması yollarını elmi müstəvidə geniş şəkildə müzakirə etmək olub.

Əvvəlcə konfrans iştirakçıları AMEA-da nəşr olunmuş ana dilinə dair kitabların sərgisi ilə tanış olublar.

Konfransı giriş nitqi ilə **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** açaraq tədbirin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağındakı çıxışında və yerli televiziya kanallarına müsahibəsində Azərbaycan dili ilə bağlı irəli sürdüyü vəzifələrin və qarşıya qoyulan tələblərin elmi müstəvidə müzakirəsinə həsr olunduğunu bildirib. AMEA rəhbəri qeyd edib ki, dövlət başçısının bu istiqamətdə çıxışları, səsləndirdiyi fikirlər müstəqil Azərbaycan dövlətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə, milli-mənəvi birliyin gücləndirilməsinə və Azərbaycan dilinin qorunub zənginləşdirilməsinə yönəlib.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, ölkəmizdə dövlət dili siyasətinin möhkəm təməlləri Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin hakimiyyətinin birinci dövründə, sovet ideologiyasının beynəlmiləlçilik siyasətinin hökm sürdüyü şəraitdə belə, azərbaycançılıq istiqamətində ardıcıl və düşünülmüş addımlar atılıb. Heydər Əliyevin təşəbbüsü və qətiyyətli siyasəti nəticəsində 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi Ulu Öndərin uzaqgörənliyinin və milli dəyərlərə bağlılığının bariz nümunəsidir.

Müasir dövrdə Prezident İlham Əliyevin Azərbaycan dili siyasətini dövlət siyasətinin aparıcı istiqamətlərindən biri kimi daim diqqət mərkəzində saxladığını söyləyən AMEA rəhbəri ”Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın bu sahədə aparılan elmi tədqiqatlar üçün əsas yol xəritəsi rolunu oynadığını vurğulayıb.

”Dövlət başçısının AMEA-nın 80 illik yubileyindəki çıxışı, eləcə də cari ilin yanvar ayında yerli televiziya kanallarına verdiyi müsahibələrdə Azərbaycan dilinin qorunması ilə bağlı səsləndirdiyi fikirlər bu sahədə dövlət siyasətinin yeni mərhələyə qədəm qoyduğunu göstərir”, - deyən akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin Azərbaycan dili ilə bağlı tələblərinin bir neçə əsas istiqaməti əhatə etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, bunlara dilə verilən yüksək dəyər, onun milli mənsubiyyətin əsas göstəricisi kimi təqdim olunması, həmçinin beynəlxalq terminologiyanın istifadəsinə balanslı yanaşma daxildir. AMEA prezidenti əlavə edib ki, beynəlxalq terminlərlə yanaşı, Azərbaycan dilinin daxili imkanları hesabına yeni terminlərin yaradılması və milli terminologiyanın genişləndirilməsi vacibdir. Bu məqsədlə AMEA-nın Dilçilik İnstitutunun ”Terminologiya məsələləri” jurnalında müvafiq məlumatlar dərc olunur.

AMEA rəhbəri texnoloji inkişaf dövründə dilin qorunması yollarının göstərilməsinin bu sahədə çalışanlar üçün də praktik bələdçi rolunu oynadığını vurğulayıb. O, Azərbaycan dilinin zənginləşdirilməsi yollarından bəhs edərək, bu baxımdan dialektoloji xəzinə, söz yaradıcılığı və bədii ədəbiyyata müraciət olunmasının əhəmiyyətini vurğulayıb.

Akademik İsa Həbibbəyli AMEA-da dövlət dil siyasətinin icrası istiqamətində görülən işlərdən də danışıb. Dilçi alimlər, eləcə də Azərbaycan Yazıçılar Birliyi ilə birgə keçirilən tədbirlər, Azərbaycan dili üzrə olimpiadanın təşkili, orfoqrafiya və orfoepiya lüğətlərinin hazırlanması, şəxs adları ilə bağlı məlumat kitabçalarının tərtibi bu fəaliyyətin əsas istiqamətləri kimi qeyd olunub. Həmçinin Azərbaycan dilinin qrammatikası üzrə sistemli elmi tədqiqatların aparıldığı, fonetika, morfologiya və leksika ilə bağlı nəşrlərin çap olunduğu, sintaksis üzrə əsərin isə hazırlanma mərhələsində olduğu bildirilib.

Mətbuat nümayəndələrinin iştirakı ilə keçirilən bugünkü tədbirin əhəmiyyətinə toxunan akademik İsa Həbibbəyli medianın Azərbaycan dilini ən çox aktivləşdirən və kütləviləşdirən əsas vasitə olduğunu qeyd edib. Akademiya rəhbəri media dilinin tənzimlənməsi istiqamətində işlərin aparılmasının zəruriliyini bildirib və AMEA-nın bu sahədə Azərbaycan Mətbuat Şurasına elmi dəstək verməyə hazır olduğunu diqqətə çatdırıb.

O, çıxışının sonunda konfransı Prezident İlham Əliyevin Azərbaycan dili ilə bağlı çağırışlarından irəli gələn vəzifələrin icrası istiqamətində mühüm addım kimi dəyərləndirib, tədbirin işinə uğurlar arzulayıb.

Sonra Azərbaycan **Mətbuat Şurasının sədri Rəşad Məcid** çıxış edərək dil məsələsinə həsr olunan tədbirin aktuallığını və əhəmiyyətini önə çəkib. Şura sədri iki qurum arasında formalaşmış əməkdaşlıq münasibətlərindən danışıb, bu tərəfdaşlığın media dilinin inkişafına töhfə verdiyini bildirib.

O, Prezident İlham Əliyev tərəfindən AMEA-nın 80 illik yubileyinə həsr olunmuş tədbirdə, eləcə də yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə səsləndirilən fikirlərin Azərbaycan dilinin bu günü və gələcəyi ilə bağlı aydın istiqamət müəyyənləşdirən strateji çağırış, dövlətin dil siyasətində yeni mərhələyə keçidin ifadəsi olduğunu vurğulayıb.

Rəşad Məcid bildirib ki, dövlət başçısı AMEA-nın 80 illik yubileyinə həsr olunmuş tədbirdə çıxışı zamanı Azərbaycan dilinin saflığının qorunmasını mühüm vəzifə kimi müəyyənləşdirib və alimlərin qarşısında konkret tapşırıqlar qoyub. O, cənab Prezidentin Akademiyanın 80 illik yubileyindəki parlaq nitqindən bir neçə gün sonra AMEA, Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə keçirilmiş ”Mediada Azərbaycan ədəbi dilinin normalarının düzgün tətbiqi” mövzusunda konfransı xatırladıb. Qeyd edib ki, tədbirin əsas məqsədi mediada ədəbi dil normalarına əməl olunmasını gücləndirmək və nitq mədəniyyətini yüksəltmək olub.

”Dövlət başçısının çıxış və müsahibələrində jurnalistləri ədəbi dil məsələsində xüsusi məsuliyyət daşıyan peşə sahibləri kimi vurğulaması medianın üzərinə daha böyük öhdəliklər və vəzifələr qoymuşdur”, - deyən Şura sədri vurğulayıb ki, jurnalistlər və ümumilikdə media nümayəndələri dilimizin inkişafında, qorunmasında mühüm rol oynayırlar. Bu səbəbdən də media mənsublarının Azərbaycan dilini düzgün, səlis və ədəbi normalara uyğun şəkildə istifadə etməsi əsas vəzifələrdən biridir.

O, Azərbaycan Mətbuat Şurasının Dil Komissiyasının fəaliyyəti barədə də məlumat verərək bildirib ki, Şuranın İdarə Heyətinin 2025-ci ildə keçirilən iclasında Prezident İlham Əliyevin dil siyasəti ilə bağlı fikirlərindən irəli gələn məsələlər müzakirə olunub və Komissiyanın tərkibi yenidən formalaşdırılıb.

Şura sədri Komissiyanın fəaliyyətinin səmərəliliyinin artırılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının institutları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin vacibliyini qeyd edib, tədbirin bu baxımdan mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Daha sonra çıxış edən **”APA Media Group”un baş direktoru, Azərbaycan Mətbuat Şurasının Dil Komissiyasının sədri Vüsalə Mahirqızı** Azərbaycan dilinin yalnız ünsiyyət vasitəsi deyil, həm də milli düşüncə modeli olduğunu deyib. Bildirib ki, təsadüfi deyil ki, Prezident İlham Əliyev çıxış və müsahibələrində Azərbaycan dilini milli kimliyimizin və dövlətçiliyimizin əsas atributu kimi dəyərləndirib, dilin saflığının qorunmasının vacibliyini qeyd edib. Cənab Prezident xüsusilə dilə nəzarətsiz şəkildə xarici sözlərin daxil olmasına qarşı mövqeyini ifadə edib.

Bu istiqamətdə əsas məsuliyyətin dilçi alimlərin üzərinə düşdüyünü söyləyən Vüsalə Mahirqızı əlavə edib ki, yeni sözlərin yaradılması, terminologiyanın formalaşdırılması və müzakirəyə çıxarılması birbaşa mütəxəssislərin işidir. Eyni zamanda, media nümayəndələri dilin qorunması və inkişafı naminə dilçi alimlərlə davamlı və sistemli əməkdaşlıq etməli, birgə fəaliyyət göstərməlidir.

AMEA tərəfindən Azərbaycan dilinin orfoqrafik, orfoepik, leksik və terminoloji lüğətlərinin hazırlandığını söyləyən məruzəçi, bu lüğətlərin həm media, həm də geniş ictimaiyyət üçün elektronlaşdırılmasının, bu prosesdə rəqəmsal, eyni zamanda süni intellekt texnologiyalarından istifadənin vacibliyini önə çəkib. O, xüsusilə orfoepik lüğətlərin, yeni sözlərin düzgün tələffüzünün elektronlaşdırılmasının önəmli olduğunu vurğulayıb. Qeyd edib ki, bu istiqamətdə AMEA-nın Dilçilik İnstitutunun fəaliyyəti Azərbaycan dilinin inkişafına mane olan problemlərin sürətli şəkildə aradan qaldırılmasına, dilimizin yad təsirlərdən qorunması prosesinin daha sürətli və effektiv aparılmasına xidmət edəcək.

Konfransda **AMEA Nəsimi adına Dilçilik İnstitutunun Monitorinq və linqvistik təhlil şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Sevinc Əliyeva, Mətbuat Şurası Dil Komissiyasının üzvlərindən - ”Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov, Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli, tanınmış teleaparıcı Nərgiz Cəlilova, ”Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu, ”Bakı-Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev, MŞ-nin Ahıl Jurnalistlər Məclisinin rəhbəri, ”Xalq qəzeti”nin baş redaktor müavini Tahir Aydınoğlu, eləcə də Mətbuat Şurası sədrinin müavini Səadət Məmmədova və AMEA Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri, professor Sayalı Sadıqova** çıxış ediblər.

Çıxışlarda media mühitində Azərbaycan dilinin ədəbi normalara uyğun, səlis və düzgün istifadəsinin təşviqi, dil mədəniyyətinin inkişafı, sosial media dili və televiziya və radio məkanında nitq mədəniyyəti kimi məsələlər müzakirə olunub. Vurğulanıb ki, media Azərbaycan ədəbi dilinin qorunması və cəmiyyətdə fəal şəkildə işlədilməsində strateji rol oynayır. Yeni terminlərin dilimizə gətirilməsi prosesində, dilin zənginliyinin və orijinallığının qorunmasında medianın və jurnalistlərin üzərinə böyük məsuliyyət düşür.

Bildirilib ki, efir məkanında, çap və rəqəmsal media platformalarında ədəbi dil normalarına riayət olunması milli-mədəni dəyərlərin qorunması və dilin saflığının təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

# AMEA Beynəlxalq Akademiyalar Birliyinin fəxri üzvü seçilib

**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli 9-11 fevral 2026-cı il tarixlərində Yunanıstanın paytaxtı Afina şəhərində keçirilən Beynəlxalq Akademiyalar Birliyinin Təsis konfransında iştirak və çıxış edib.**



Təsis konfransının plenar iclasında Afina Elmlər Akademiyasının prezidenti akademik Nikifiros Diamantourosun açılış nitqindən sonra Yunanıstan Respublikasının keçmiş prezidenti, Afina Universitetinin fəxri professoru Prokopios Pavlopousos ”Süni intellekt dövründə mif və həqiqət” mövzusunda məruzə ilə çıxış edib.

Bundan başqa, plenar iclasda ”Süni intellekt, insan sağlamlığı və zəka”, ”Süni intellektdə kollektiv və iqtisadi baxış”, ”İnnovasiya, rəqabətlilik: Avropa iqtisadiyyatının inkişafı və gələcəyi”, ”Rəqəmsal arxeologiya və insan faktoru”, ”Antropogen dövrdə iqlim dəyişiklikləri və Aralıq dənizi hövzəsində mədəni irsin dayanıqlığı” mövzularında məruzələr dinlənilərək müzakirə aparılıb.

Yunanıstan Elmlər Akademiyasının Neoklassik zalında 10 fevral 2026-cı il tarixdə keçirilən Beynəlxalq Akademiyalar Birliyinin Təsis konfransında Yunanıstan Elmlər Akademiyasının vitse-prezidenti, akademik Kristos Zerefos Beynəlxalq Akademiyalar Birliyi İdarə Heyətinin sədri seçilib.

İclasda 41 ölkədən gəlmiş Elmlər Akademiyalarından Beynəlxalq Akademiyalar Birliyinin tam üzvləri, fəxri üzvləri seçilib, üzvlüyə namizədlər müəyyən olunub. Azərbaycan Milli Elmlər Akademiyası Beynəlxalq Akademiyalar Birliyinin fəxri üzvləri sırasında yer alıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli səfər çərçivəsində Türkiyə Elmlər Akademiyasının prezidenti professor Müzəffər Şəkərlə görüşüb, qarşılıqlı əməkdaşlıq məsələləri və Birinci Türkoloji Qurultayla əlaqədar keçiriləcək tədbirlər barədə müzakirələr aparıb. Eyni zamanda, Avstriya Elmlər Akademiyasının prezidenti professor Hayns Fabman və Macarıstan Elmlər Akademiyasının vitse-prezidenti Vanda Lamm ilə də görüş keçirilib.

Beynəlxalq Akademiyalar Birliyinin Təsis konfransının iştirakçıları Yunanıstanın qədim tarixi abidələri və antik mədəniyyəti ilə tanış olublar.

# Dahi memar Əcəmi Naxçıvani yaradıcılığı

**AMEA-nın Əsas binasında Memarlıq və İncəsənət İnstitutunun təşkilatçılığı ilə "Dahi memar Əcəmi Naxçıvani yaradıcılığı" mövzusunda elmi sessiya keçirilib.**





Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq Prezident İlham Əliyevin "Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında" 30 dekabr 2025-ci il tarixli Sərəncamına əsasən keçirilən elmi sesssiyanın elmi əhəmiyyətini qeyd edib. O, Əcəmi Naxçıvaninin 900 illiyinin "Şəhərsalma və Memarlıq İli"nə təsadüf etməsinin tarixi irslə müasir inkişaf strategiyalarının vəhdətini ifadə etdiyini, bu uyğunluğun Azərbaycan memarlıq ənənələrinin davamlılığını və aktual dəyərini bir daha nümayiş etdirdiyini vurğulayıb.

Dövlətimiz tərəfindən Əcəmi Naxçıvaninin sənətinə, şəxsiyyətinə daim böyük diqqət göstərildiyini bildirən akademik İsa Həbibbəyli Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə görkəmli memarın 850 illik yubileyinin 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə qeyd edildiyini söyləyib. O, həmin il Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində keçirilən yubiley tədbirlərində iştirak etdiyini deyib.

Akademik İsa Həbibbəyli, həmçinin Prezident İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" 22 may 2025-ci il tarixli Sərəncamını xatırladıb. Qeyd edib ki, Möminə xatun türbəsinin özünəməxsus tarixi görkəminin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədilə imzalanmış bu sənəd mühüm strateji əhəmiyyət daşıyır.

AMEA rəhbəri Naxçıvan memarlığının şah əsərlərindən olan Möminə xatun türbəsinin birinci mərtəbəsində Atabəylər dövrünü əks etdirən muzeyin təşkil olunduğunu və Ulu Öndər Heydər Əliyevin həmin muzeyi ziyarət etdiyini vurğulayıb. Akademik İsa Həbibbəyli 2025-ci ildə özü tərəfindən həmin tarixi fotoların aşkar edilərək Əcəmi Naxçıvani haqqında məqalədə ilk dəfə çap edildiyini bildirib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Əcəmi Naxçıvaninin fəaliyyəti Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutan qüdrətli Atabəylər dövlətinin paytaxtı, Yaxın Şərqin mədəniyyət mərkəzlərindən biri Naxçıvan şəhəri ilə bağlı olub. Naxçıvan şəhərindəki möhtəşəm abidələrdən Əcəmi dühasının məhsulu olan Möminə xatun məqbərəsi və Yusif ibn Küseyir türbəsi İslam aləminin şah əsərləri sırasında layiqli yer tutur. Onun sözlərinə görə, Əcəmi memarlıq məktəbinin yadigarlarından sayılan Gülüstan türbəsi də Naxçıvanın qədim memarlıq məktəbinin qiymətli abidələrindən biridir.

Əcəmi Naxçıvaninin Azərbaycan mədəniyyət tarixinin ən parlaq simalarından biri olduğunu söyləyən AMEA rəhbəri onun irsinin memarlıqla məhdudlaşmadığını, obrazının təsviri sənətdə də əksini tapdığını bildirib. O, Əcəmi Naxçıvaninin təkcə böyük memar deyil, bütöv bir memarlıq məktəbinin banisi olduğunu vurğulayıb. Qeyd edib ki, Əcəminin parlaq irsi məktəb rolunu oynayıb, sonrakı əsrlərdə də Azərbaycan və Yaxın Şərq ölkələrinin memarlığına güclü təsir göstərib.

Akademik İsa Həbibbəyli AMEA-da Əcəmi Naxçıvani irsinin öyrənilməsi istiqamətində görülən işlərdən də bəhs edib. Bildirib ki, akademik Əbdülvahab Salamzadə XX əsrin ortalarından etibarən Əcəminin sənət dünyasını elmi əsaslarla açmağa müvəffəq olub. Naxçıvan memarlıq məktəbinin ilkin tədqiqatı onun adı ilə bağlıdır. Həmçinin Azərbaycan ədəbiyyatında Əcəmi Naxçıvaninin həyatı və sənəti müxtəlif janrlarda yazılmış bədii əsərlərin mövzusunu təşkil edib.

Sonra Memarlıq və İncəsənət İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə "Əcəmi Naxçıvani yaradıcılığının dünya memarlığına təsiri" mövzusunda məruzəsini təqdim edib. O, Naxçıvanda və respublikamızın digər şəhərlərində ucaldılan, memarlıq baxımından əhəmiyyətli komplekslər, tarixi abidələr haqqında məlumat verib. Alimin məruzəsində Əcəmi yaradıcılığının təhlili təfərrüatı ilə diqqətə çatdırılıb. AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə dahi memarın yaratdığı kompozisiyaların, dekorativ bəzək üsullarının Azərbaycan memarlığı ilə bərabər Yaxın Şərq memarlıq tikililərinə təsirindən bəhs edib. Əcəmi yaradıcılığı üçün səciyyəvi olan ornament kompozisiyaların bədiiliklə riyazi təfəkkürün üzvi birləşməsinə əsaslandığını bildirib.

Tədbirdə Memarlıq və İncəsənət İnstitutunun şöbə müdiri memarlıq doktoru, dosent Rahibə Əliyevanın "Səkkiz əsrin şahidi: Əcəmi sənətinin möhtəşəmliyi", Naxçvan Dövlət Universitetinin dosenti, memarlıq üzrə fəlsəfə doktoru Gülnarə Qəmbərovanın "Yaxın Şərq memarlığında Memar Əcəmi irsi" və Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsinin elmi işçisi Brilyant Cəfərlinin "Memarlıq dühası Əcəmi Naxçıvani yaradıcılığında bəzi həndəsi ornamentlərin simvolik mənaları" mövzusunda məruzələri dinlənilib.

# Akademik Rasim Əliquliyev: Ölkəmizdə rəqəmsal platformada sosial observatoriyanın formalaşdırılması istiqamətində məqsədyönlü araşdırmalar həyata keçirilməkdədir




**AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev AzərTac-a açıqlamasında müasir dövrdə qabaqcıl rəqəmsal texnologiyaların sürətli inkişafı kontekstində internet platformasında formalaşan cəmiyyətin xüsusi bir tədqiqat obyekti kimi diqqət mərkəzində olduğunu, bu baxımdan süni intellektin müxtəlif aspektlərinə həsr olunmuş konfransların, dəyirmi masaların keçirilməsinin böyük əhəmiyyət daşıdığını bildirib. O, son illərdə dövlət qurumlarında rəqəmsallaşma məsələlərinə yüksək həssaslıq və məsuliyyətlə yanaşılmasını yüksək qiymətləndirib.**

Alim son illər ərzində dövlət başçısı tərəfindən ardıcıl olaraq qəbul edilən "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası", "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" və "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası" ilə bağlı qarşıya qoyulan strateji vəzifələrdən, hədəflərdən danışıb: "Bu sənədlər milli maraqlara xidmət edərək, dövlətin kibertəhlükəsizliyinin, kibersuverenliyinin yüksək səviyyədə təmin olunması, vətəndaşların hüquqlarının qorunması, ölkədə rəqəmsallaşma sahəsində pərakəndəliyin aradan qaldırılması, dövlət maraqlarının korporativ maraqlar üzərində üstünlüyünün təmin edilməsini nəzərdə tutur".

Akademik Rasim Əliquliyev bu sənədlərdən irəli gələn vəzifələrin icrası istiqamətində həm müvafiq dövlət qurumlarında, həm də ölkənin elmi müəssisə və təşkilatlarında kompleks tədbirlərin həyata keçirildiyini, ölkəmizdə rəqəmsal transformasiya prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu deyib.

Alim bildirib ki, son 20 ildə ölkəmizdə həyata keçirilən məqsədyönlü rəqəmsallaşma siyasəti nəticəsində süni intellekt texnologiyalarının geniş tətbiqi və inkişafı üçün möhkəm zəmin formalaşmışdır. Bu gün Azərbaycanda süni intellektin əsas strateji resursunun datalardan (verilənlərdən) ibarət olduğunu deyən alim əlavə edib ki, müasir dövrdə insan fəaliyyətinin bütün istiqamətlərində datalar yaranır və sürətlə artır, böyük həcmdə məlumat bazaları formalaşır və ölkə üzrə vahid rəqəmsal ekosistemin tərkib hissəsinə çevrilir.

Xüsusilə dövlət qurumlarına məxsus data reyestrlərində vətəndaşlar haqqında çoxşaxəli və genişhəcmli məlumatların toplandığını və sistemləşdirildiyini söyləyən akademik bu tendensiyanın big data analitikası problemlərini aktuallaşdırdığını vurğulayıb. Bildirib ki, bir çox sosial göstəricilərin artıq rəqəmsal platformada inikas olunması, sosiologiya elminin də yeni mərhələyə qədəm qoyduğunu göstərir: "Müasir mərhələdə sosiologiya getdikcə dəqiq elmlərlə çulğalaşır, riyazi mahiyyət kəsb etməyə başlayır. Nəticə etibarilə rəqəmsal və riyazi sosiologiya multidissiplinar kompüter elmlərinin mühüm istiqamətlərindən birinə çevrilir".

Baş direktor rəhbərlik etdiyi institutda dövlət qurumlarına məxsus data reyestrlərin əsasında rəqəmsal demoqrafik intellektual sistemin arxitektur-texnoloji əsaslarının işlənib hazırlandığını, bu platforma üzərindən tibbi demoqrafiya, linqvistik demoqrafiya və digər istiqamətlər üzrə strateji əhəmiyyətli təhlillərin aparıldığını, cəmiyyət üçün faydalı biliklərin əldə olunduğunu bildirib.

Alim vurğulayıb ki, ölkədə həyata keçirilən ardıcıl dövlət siyasətinin nəticəsi olaraq rəqəmsal platformada sosial observatoriyanın formalaşdırılması istiqamətində mühüm addımlar atılır. Sosial observatoriya böyükhəcmli məlumat bazaları üzərində müxtəlif aspektli sosioloji tədqiqatların aparılmasına, süni intellekt texnologiyalarının tətbiqi ilə cəmiyyətdə gedən proseslərin sistemli və şəffaf təhlilinə imkan yaradır.

Akademik Rasim Əliquliyev ölkədə süni intellekt və rəqəmsallaşma istiqamətində aparılan tədqiqatların dövlətin strateji maraqlarına və müəyyən edilmiş prioritetlərə uyğun sistemli şəkildə əlaqələndirilməsinin vacibliyinə diqqət çəkib. Alimin sözlərinə görə, bu sahədə koordinasiyanın gücləndirilməsinə, prioritet istiqamətlərin müəyyənləşdirilməsinə, aparılan elmi-tədqiqat işlərinin monitorinqi və qiymətləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac var. Həmçinin dövlət başçısı tərəfindən müvafiq sahədə qəbul olunan mühüm strateji sənədlərin icrası prosesində dövlət qurumları, elmi müəssisələr, biznes sektoru və vətəndaş cəmiyyəti institutları arasında daha sıx əməkdaşlıq təmin edilməli, mütəmadi olaraq elmi ictimai müzakirələr təşkil olunmalıdır.

# Naxçıvan Bölməsində elmi seminar

**AMEA Naxçıvan Bölməsində elmi seminar keçirilib.**

Seminarı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. İsmayıl Hacıyev çıxışında müasir elmi mühitdə baş verən yeniliklərdən və qlobal elmi inteqrasiyanın tələblərindən ətraflı bəhs edib. O bildirib ki, bu gün elmi fəaliyyət yalnız tədqiqat aparmaqla məhdudlaşmır, eyni zamanda nəticələrin beynəlxalq elmi ictimaiyyətə düzgün və qəbul olunmuş standartlara uyğun şəkildə təqdim edilməsi mühüm əhəmiyyət kəsb edir.



Akademik vurğulayıb ki, elmi işlərin keyfiyyəti onların metodoloji əsaslandırılması ilə yanaşı, istinadların düzgün qurulmasından da asılıdır. Onun sözlərinə görə, istinad sistemi sadəcə texniki tələb deyil, həm də akademik etik davranışın əsas göstəricisidir.

İsmayıl Hacıyev qeyd edib ki, beynəlxalq elmi bazalarda indeksləşən nüfuzlu jurnallar və nəşriyyatlar məqalələrin hazırlanmasında vahid standartların tətbiqini tələb edir. Bu baxımdan bölmə əməkdaşlarının və gənc tədqiqatçıların bu sistemin incəliklərinə dərindən yiyələnməsinin vacibliyini diqqətə çatdırıb.

Çıxışında rəqəmsallaşma proseslərinə də toxunan akademik bildirib ki, elmi fəaliyyətin elektron platformalara inteqrasiyası və beynəlxalq elmi bazaların imkanlarından istifadə edilməsi müasir tədqiqatçının əsas bacarıqlarından birinə çevrilib. O, elmi məqalələrin beynəlxalq dövriyyəyə daxil olması üçün texniki və metodiki tələblərə riayət edilməsinin vacibliyini vurğulayıb.

Sədr seminarların mütəmadi keçirilməsinin əhəmiyyətini qeyd edərək bildirib ki, bu cür maarifləndirici tədbirlər elmi mühitdə vahid yanaşmanın formalaşmasına və beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsinə xidmət edir.

Seminarda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev rəqəmsallaşma və müasir istinad standartları haqda məlumat verib. Alim, xüsusilə DOİ sisteminin elmi mənbələrin əlçatanlığının və sitat izlənməsinin təmin edilməsində mühüm rol oynadığını qeyd edib.

Vəli Baxşəliyev APA 7 sisteminin struktur xüsusiyyətlərini mərhələli şəkildə izah edərək, mətn daxilində istinadların verilməsi qaydaları, ədəbiyyat siyahısının tərtibi prinsipləri və müxtəlif mənbə növlərinə istinad formalarını iştirakçıların diqqətinə çatdırıb. Bildirilib ki, ikimüəllifli və çoxmüəllifli əsərlərə, müəllifsiz kitablara, eyni müəllifin eyni tarixdə çap olunmuş bir neçə əsərinə istinad zamanı xüsusi qaydalar tətbiq edilir.

Eyni zamanda dissertasiyalarda istinad tələbləri, redaktorlu toplularda dərc olunmuş məqalələrə istinad forması, konfrans materialları, qəzet məqalələri, dini əsərlər və arxiv sənədlərinin göstərilməsi qaydaları konkret nümunələr əsasında izah olunub.

Seminar interaktiv müzakirələr şəraitində davam edib. İştirakçılar tərəfindən ünvanlanan suallar ətraflı cavablandırılıb, praktik nümunələr üzərində fikir mübadiləsi aparılıb.

# Fəlsəfə və Sosiologiya İnstitutu və Sosial Tədqiqatlar Mərkəzinin birgə təşkilatçılığı ilə respublika konfransı

**AMEA Fəlsəfə və Sosiologiya İnstitutu və Sosial Tədqiqatlar Mərkəzinin birgə təşkilatçılığı ilə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası"nın qəbul edilməsinin bir illiyinə həsr edilmiş "Rəqəmsallıq və sosial informasiyanın inkişaf dinamikası" mövzusunda respublika elmi konfransı keçirilib.**



Konfransda müasir dövrdə rəqəmsallaşma cəmiyyətin bütün sahələrinə nüfuz edərək sosial münasibətlərin, idarəetmə mexanizmlərinin və fərdi davranışların transformasiyasına səbəb olmuşdur. Konfransın məqsədi - rəqəmsallığın fəlsəfi, sosial, psixoloji, hüquqi, siyasi, tarixi aspektlərinin elmi müzakirəsini təmin etmək, multidissiplinar yanaşmalar əsasında informasiyanın idarə edilməsinin yeni inkişaf dinamikası təhlil edilib.

Konfransı giriş nitqi ilə açan AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, f.e.d., professor İlham Məmmədzadə Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın məqsədi ölkədə süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə sosial informasiya dinamikasını təhlil etmək və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirməkdir - deyə vurğulayıb.

Sonra Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc bildirib ki, süni zəka yalnız texniki yenilik deyil, həm də strateji resurs kimi qiymətləndirilməlidir: "Onun düzgün tətbiqi və inkişafı Azərbaycan və bütövlükdə türk dünyasının gələcək rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən biridir".

AMEA-nın vitse-prezidenti, ETN İnformasiya Texnologiyaları İnstitutunun direktoru akademik Rasim Əliquliyev çıxışında cəmiyyətin tədricən sosiotexnoloji mərhələyə keçdiyini, süni intellektin insanın imkanlarını genişləndirən əsas amillərdən biri olduğunu bildirib. Akademik data analitika, big data, süni intellekt və s. kimi texnologiyaların proqram mühəndisliyi sahəsinə tamamilə yeni tələblər qoyduğunu, bu sahədə süni intellektin tətbiqi zamanı yaranan problemlərin, kibertəhlükəsizlik və etibarlılıq məsələlərinin araşdırılmasının vacibliyini qeyd edib.

Konfransda AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Sosial Tədqiqatlar Mərkəzi, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası, Hərbi Elmi Tədqiqat İnstitutu, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti, Milli Aviasiya Akademiyası, Bakı Biznes Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Universitetinin və digər ali məktəblərdən olan tədqiqatçılar iştirak edib.

Daha sonra AR ƏƏSMN tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya İdarə Heyətinin sədrinin müavini, Elçin Süleymanov, Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası idarə heyətinin sədri, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İctimai Şurasının üzvü Elvin Abbasov, Yeni Texnologiyaların İnkişafına Dəstək İctimai Birliyinin sədri Ceyhun Xəlilov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin direktor müavini Orxan Salahov, Rəqəmsal İnkişaf və İnnovasiyalar şöbəsini müdiri Rəşad Xalıqov, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri f.e.d. Füzuli Qurbanov, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri sosiologiya elmləri doktoru Səadət Məmmədova süni intellekt strategiyasının icra vəziyyəti, rəqəmsal transformasiya prosesləri və sosial informasiya mühitində baş verən dəyişikliklər mövzusunda çıxış edərək fikirlərini bölüşüblər.

# Dilçilik İnstitutunda Beynəlxalq Ana Dili Günü münasibətilə elmi sessiya



**UNESCO tərəfindən təsis edilən Beynəlxalq Ana Dili Günü münasibətilə AMEA Nəsimi adına Dilçilik İnstitutunda elmi sessiya keçirilib.**

Tədbir ana dilimizin qorunması, zənginləşdirilməsinə və müasir çağırışlar fonunda inkişaf perspektivlərinin müzakirəsinə həsr olunub.

Elmi sessiyanı giriş sözü ilə açan institutun direktoru, professor Nadir Məmmədli ana dilinin milli kimliyin əsas dayaqlarından biri olduğunu vurğulayaraq Azərbaycan dilinin tarixi inkişaf yolundan, dövlət dili statusunun möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasətdən və qloballaşma şəraitində dilimizin qorunması ilə əlaqədar qarşıda duran vəzifələrdən bəhs edib. Professor Nadir Məmmədli çıxışında qeyd edib ki, ana dilinin saflığının qorunması, elmi əsaslarla tədqiqi və gələcək nəsillərə ötürülməsi hər bir ziyalının vətəndaşlıq borcudur.

Sessiyada çıxış edən alimlər mövzunu müxtəlif aspektlərdən işıqlandırıblar. Professor Sayalı Sadıqova "İlham Əliyev və dövlət dilinin inkişaf strategiyası" mövzusunda məruzə ilə çıxış edərək Prezident İlham Əliyev tərəfindən ana dilimizin qorunması və inkişafı istiqamətində imzalanmış sərəncam və fərmanların əhəmiyyətini diqqətə çatdırıb. O bildirib ki, dövlət səviyyəsində həyata keçirilən məqsədyönlü dil siyasəti Azərbaycan dilinin beynəlxalq nüfuzunun artmasına, terminoloji bazanın zənginləşməsinə və normativ bazanın təkmilləşməsinə mühüm töhfələr vermişdir.

Dosent Xədicə Heydərova "Ana dilimizin saflığı; tarixi köklər və müasir çağırışlar" mövzusunda çıxış edərək Azərbaycan dilinin qədim tarixi köklərindən, ədəbi dil normalarının formalaşma mərhələlərindən və müasir dövrdə dilə təsir edən amillərdən danışıb. O, xüsusilə informasiya texnologiyalarının sürətli inkişafı və sosial şəbəkələrin geniş yayılması fonunda ədəbi dil normalarının qorunmasının aktuallığını vurğulayıb.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Təranə Şükürlü isə "Mediada Azərbaycan dili" mövzusunda çıxış edərək kütləvi informasiya vasitələrində dil mədəniyyətinin vəziyyəti, leksik norma və üslub məsələləri barədə fikirlərini bölüşüb. O, çıxışında qeyd edib ki, media dili cəmiyyət üçün nümunəvi olmalı, KİV-də ədəbi dil normalarına ciddi əməl edilməlidir.

Sessiyada dinlənilən məruzələr ətrafında geniş müzakirələr aparılıb, iştirakçılar tərəfindən səsləndirilən fikir və təkliflər ana dilimizin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli hesab edilib. Çıxışlarda Azərbaycan dilinin elmi istiqamətdə tədqiqinin genişləndirilməsi, terminologiya sahəsində vahid yanaşmanın formalaşdırılması və gənc nəslin dil mədəniyyətinin yüksəldilməsi kimi məsələlər xüsusi vurğulanıb.

Tədbirin sonunda professorlar Mayıl Əsgərov və İlhami Cəfərsoy çıxış edərək sessiyanın mövzusuna öz münasibətlərini bildiriblər. Beynəlxalq Ana Dili Gününün əhəmiyyətini qeyd edərək ana dilimizin qorunması və inkişafı istiqamətində birgə səylərin davam etdirilməsinin vacibliyini diqqətə çatdırıblar. Elmi sessiya iştirakçıların maraqlı fikir mübadiləsi və qarşılıqlı elmi müzakirələri ilə başa çatıb.

# AMEA-da əmək qanunvericiliyində yeniliklərə dair seminar



**Azərbaycan Milli Elmlər Akademiyasında Azərbaycan Respublikasının Əmək Məcəlləsinə edilən dəyişikliklər və onların təcrübədə tətbiqi ilə əlaqədar seminar keçirilib.**

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının elmi müəssisə və təşkilatlarının İnsan resursları şöbələrinin müdirləri iştirak ediblər.

Seminarda AMEA-nın Rəyasət Heyəti aparatının İnsan resursları şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmud çıxış edərək bu dəyişikliklərin əsasən, əmək münasibətlərinin rəqəmsallaşdırılması, işçilərin hüquqlarının müdafiəsi, müqavilə şərtlərinin yüngülləşdirilməsi, həm işçilərin, həm də işəgötürənlərin hüquq və vəzifələrinin dəqiqləşdirilməsi və genişləndirilməsi ilə bağlı yenilikləri əhatə etdiyini vurğulayıb.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində əksini tapan müəyyən anlayışların dəqiqləşdirilməsinə, müasir iş formalarının hüquqi əsaslarının yaradılmasına xidmət edən əhəmiyyətli dəyişikliklər əmək münasibətlərinin tənzimlənməsini yeni hüquqi müstəviyə çıxaracağını qeyd edən natiq əmək qanunvericiliyində olan dəyişikliklərin praktikada tətbiqi ilə əlaqədar seminar iştirakçılarına məlumat verib.

Çıxışdan sonra iştirakçıların sualları cavablandırılıb.

# Azərbaycanda sualtı arxeoloji tədqiqatlar: keçmişdə və indi

**AMEA Arxeologiya və Antropologiya İnstitutunun Xəzər arxeologiyası şöbəsinin müdiri t.e.d., professor Abbas Seyidovun doktorant və dissertantlar üçün "Azərbaycanda sualtı arxeoloji tədqiqatlar: keçmişdə və indi" mövzusunda mühazirəsi keçirilib.**



Hibrid formatda təşkil olunan mühazirədə professor A.Seyidov qeyd edib ki, Azərbaycanda sualtı tədqiqatlar 90 ilə yaxındır ki, davam edir. Birinci mərhələ 1938-1940-cı illəri əhatə edib. 1939-cu ildə Səbail adasının ətrafından 700-dən artıq üzəri yazılı və təsvirli daşlar tapılmışdır ki, hal-hazırda bu daşlar Şirvanşahlar sarayında saxlanılır. A.Seyidov bu sahədə ən geniş tədqiqatların 1968-1987-ci illəri əhatə etdiyini, təxminən 20 il ərzində mərhum arxeoloq V.Kvaçidze tərəfindən Xəzər sahillərindən, dənizin dibindən və adalardan 4 mindən artıq maddi-mədəniyyət qalığının aşkar edildiyi barədə doktorant və dissertantlara geniş məlumat verib. 2008-ci ildə İdris Əliyevin rəhbərliyi ilə aparılan tədqiqatlardan söz açan professor bir müddət bu sahədə yaranan fasilədən bəhs edib, 2022-2023-cü illərdə Neftçala və Salyan rayonlarında Mikayıl Mustafayev tərəfindən Kür çayının suyunun çəkilməsi nəticəsində üzə çıxan antik dövr küp qəbirlərinin tapılması tədqiqata cəlb olunması ilə yenidən sualtı arxeologiyanın canlanmasına səbəb olduğunu vurğulayıb.

Professor A.Seyidov müdiri olduğu Xəzər arxeologiyası şöbəsi tərəfindən 2024-cü ildə Abşeron yarımadasının sahilyanı ərazilərində - Zirə kəndi, Pirallahı ətrafı və Şəhri-Gürgənda aparılan arxeoloji tədqiqatlar zamanı Xəzərin suları altında orta əsrlərə (XII-XIV əsrlər) aid artefaktlar, batmış iki gəmi qalığı, daş və metal lövbərlərin qeydə alınması, 2025-ci ildə isə Lənkəran rayonu, Bəndovan burnu və digər Xəzərsahili ərazilərdə aparılan kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar barədə doktorant və dissertantlara geniş məlumat verib.

Sonda A.Seyidov gənc alimləri maraqlandıran sualları cavablandırıb.

# Mərkəzi Elmi Kitabxanaya yeni daxil olan ədəbiyyatın sərgisi

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında fondlara yeni daxil olan ədəbiyyatın sərgisi təşkil olunub. Sərgidə müxtəlif elm sahələrini əhatə edən monoqrafiyalar, dərsliklər, ensiklopedik nəşrlər və xarici dillərdə çap edilmiş kitablar nümayiş etdirilir.**



Nəşrlərin sırasında "Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər", "Qarabağ və Şərqi Zəngəzur. Geologiya və mineral resurslar", "Biotorpaq: Elmlə yaşayn kənd təsərrüfatı" mövzusunda respublika elmi-praktik konfransın materialları, "Ortodontiya. Təməl biliklər", "Rəqəmsal ödənişlər və elektron bankçılıq xidmətləri", "İdarəetmə nəzəriyyəsi", "İqtisadi-riyazi modellər və üsullara aid məsələlər, alqoritmlər və proqramlar", "Kənd təsərrüfatı terminlərinin izahlı lüğət" və digərləri var. Bundan əlavə, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mənalı həyat yolu və zəngin dövlətçilik irsi, ölkəmizə rəhbərliyi dövrlərdə xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri, ədliyyə sisteminə daim diqqət və qayğısı, Ulu Öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək qazanılan yüksək nailiyyətlər və parlaq qələbələr barədə məlumatların öz əksini tapdığı "Heydər Əliyev və Azərbaycan ədliyyəsi" kitabı da sərgidə nümayiş etdirilir.

Qeyd edək ki, sərginin məqsədi oxucuları kitabxananın yenilənən resursları ilə yaxından tanış etmək, elmi araşdırmalara marağı artırmaq, elmi mühitdə məlumat mübadiləsini gücləndirmək və tədqiqatçılar üçün aktual mənbələrə əlçatanlığı artırmaqdır.

Sərgi iki həftə müddətində davam edəcək.

# DİL - DÖVLƏTİN SƏSSIZ ORDUSUDUR:

## Azərbaycan folklor yaddaşında dövlətçilik ruhunun qorunması

**Bəzən bir dövlətin taleyi ordunun gücü ilə deyil, dilin taleyi ilə ölçülür. Tarix göstərir ki, qılıncla qorunan torpaq, sözlə qorunmadıqda yadlaşır. Çünki dil dağılanda torpaq da yadlaşır; dil zəifləyəndə yaddaş susur; yaddaş susanda isə xalq özü-özünü tanımaqda çətinlik çəkir. Məhz buna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan dili haqqında söylədiyi fikirlər sıradan filoloji çağırış deyil, milli təhlükəsizlik və dövlətçilik manifestidir.**



Bu nitqdə səslənən hər fikir bir həqiqəti təsdiqləyir: Azərbaycan dili təkcə danışıq vasitəsi deyil, xalqın folklor yaddaşı, mədəni kodu və dövlət müstəqilliyinin mənəvi dayağıdır. Bu dilin yaddaşı min illərin sınağından keçib; dövlətlər dağılıb, imperiyalar dəyişib, amma söz yaşayıb. Çünki Azərbaycan xalqı dövlətçiliyini bəzən kağızda yox, bayatıda, atalar sözündə, dastanda qoruyub.

Dil - milli kimliyin və dövlət müstəqilliyinin əsasıdır. Prezident İlham Əliyevin vurğuladığı əsas məqamlardan biri budur: Azərbaycan dili milli kimliyin əsas sütunudur. Bu fikir təsadüfi deyil. Çünki xalqın kimliyi pasportda yox, dilin yaddaşında yazılır. Tarix boyu yazılı dövlətçilik imkanları məhdud olan xalqımız öz varlığını sözün içində qoruyub.

Azərbaycan folklorunda "el", "oba", "yurd", "torpaq" anlayışları yalnız coğrafi yox, mənəvi məkan kimi təqdim olunur. "El gedər, söz qalar" deyimi xalqın tarix fəlsəfəsidir. Bu, dövlətçilik şüurunun ən saf ifadəsidir. Folklor yaddaşı göstərir ki, xalq özünü əvvəlcə sözlə tanıyır, sonra bayraqla.

Bayatılarda bu kimlik xüsusilə aydın hiss olunur:

*"Bu dağlar, mənim dağlar,*
*Dumanım, çənim dağlar.*
*Dilim çıxarsa dildən,*
*Ol mənə qənim dağlar."*

Bu bayatı ilk baxışda təbiətə müraciət kimi səslənsə də, mahiyyət etibarilə dil-yurd-kimlik münasibətlərinin ən kəskin və ən dramatik folklor formuludur. Burada dağ obrazı coğrafi məkan deyil, milli varlığın metafizik dayağı kimi çıxış edir. Prezident İlham Əliyevin dil haqqında fikirlərinin ideoloji xətti ilə bu bayatı tam səsləşir və həmin fikirlərin folklor yaddaşındakı ilkin, arxaik ifadəsi kimi oxunur.

**1. "Bu dağlar, mənim dağlar"** - mənsubiyyətin dili. Bayatının ilk misrası sadəcə emosional nida deyil, mənsubiyyət bəyanatıdır. "Mənim dağlar" ifadəsi torpağın hüquqi yox, dil vasitəsilə mənimsənilməsidir. Prezident İlham Əliyevin vurğuladığı kimi, torpaq yalnız sərhədlə deyil, dil yaddaşı ilə qorunur. Burada "mənim" sözü bayraqdan əvvəl gəlir - çünki əvvəlcə sözlə sahib olunur, sonra siyasi aktla.

Bu misrada dil torpağa mülkiyyət hüququ verən mənəvi sənəd rolunu oynayır.

**2. "Dumanım, çənim dağlar"** - yaddaşın sınağı

"Duman" və "çən" obrazları qeyri-müəyyənliyi, tarixi sınaqları, itki və təhlükə dövrlərini simvolizə edir. Bu misra xalqın tarixində yaşadığı yadlaşma, təzyiq, parçalanma dövrlərini xatırladır. Prezident İlham Əliyevin çıxışlarında dilin qorunması məhz bu məqamda aktuallaşır: çünki dumanlı dövrdə istiqamət verən yeganə kompas dildir.

Duman torpağı gizlədir, amma dil torpağı yaddaşda saxlayır. Bu da Prezidentin "dil milli kimliyin əsas dayağıdır" tezisinin folklor dilində ifadəsidir.

**3. "Dilim çıxarsa dildən"** - milli varlığın qırılma nöqtəsi.

Bayatının ən dramatik misrası məhz budur. Burada dilin itirilməsi fiziki yox, ontoloji faciə kimi təqdim olunur. "Dildən çıxmaq" - sadəcə danışa bilməmək deyil, özündən çıxmaq, kimliyini itirmək deməkdir.

Prezident İlham Əliyevin fikirlərində bu ideya açıq şəkildə səslənir: dil itərsə, milli kimlik də itər. Bayatı bu həqiqəti heç bir siyasi termin işlətmədən, lakin son dərəcə sərt formada bildirir: dil yoxdursa, yurd da düşmənə çevrilir.

**4. "Ol mənə qənim dağlar"** - dil olmayan yurd düşməndir.

Bu misra folklorun ən ağır ideoloji hökmüdür. Dağ - yurdun simvolu olduğu halda, dil itərsə, artıq qoruyucu yox, düşmən olur. Bu, Prezident İlham Əliyevin dil strategiyasında səslənən çox mühüm tezislə üst-üstə düşür: dil yalnız mədəniyyət deyil, təhlükəsizlik faktorudur.

Bayatı açıq şəkildə deyir:

- Torpaq səni qoruyar, əgər dil səni qoruyursa.

- Dil səni tərk edərsə, torpaq da səni tanımaz.

Bu, folklorun dövlətçilik fəlsəfəsidir.

**5. Bayatının ideoloji ümumiləşməsi.**

Bu dörd misra Prezident İlham Əliyevin dil haqqında səsləndirdiyi strateji fikirlərin folklor yaddaşındakı kodlaşdırılmış formasıdır:

- Dil torpağın mənəvi sahiblik sənədidir;
- Dil yaddaşın sınaq dövrlərində yaşama mexanizmidir;
- Dil itərsə, yurd mənasını itirir;
- Dil milli təhlükəsizliyin əsas şərtidir.

Prezidentin "dil təkcə ünsiyyət vasitəsi deyil" fikri bu bayatıda artıq həyat-ölüm dilemması səviyyəsinə qaldırılır.

**6. Nəticə:** Bayatı - şifahi təhlükəsizlik doktrinasıdır.

Bu bayatı sadə xalq şeiri deyil. Bu, şifahi milli təhlükəsizlik doktrinasıdır. Dövlətlər yazılı konstitusiyalarla, xalqlar isə belə bayatılarla yaşayıb.

Prezident İlham Əliyevin dil siyasəti məhz bu yaddaşı qorumağa yönəlib. Çünki bu yaddaş itib getsə, dağ da, yurd da, tarix də bizi tanımaz.

*Dil danışırsa - dağ mənimdir.*
*Dil susarsa - dağ qənimdir.*

Bu dörd misra bir konstitusiya maddəsi qədər güclüdür. Burada dil, yurd və "özlük" eyni mənəvi xətt üzərində birləşir.

Folklor - yazısız dövlətçilik məktəbidir. Azərbaycan dili əsrlər boyu yazısız dövrlərdə belə folklor vasitəsilə dövlətçilik şüurunu yaşadıb. "Kitabi-Dədə Qorqud" dastanı yalnız ədəbi abidə deyil, idarəetmə, ədalət, torpaq və legitimlik kodeksidir. Dədə Qorqudun hər sözü hökm, hər duası dövlət qərarı mahiyyəti daşıyır.

Dastanlarda torpaq müqəddəsdir: torpaq tərk edilmir, qorunur. Atalar sözlərində ədalət ölçüsü formalaşır:

*"El gücü - sel gücü",*
*"Haqq nazilər, üzülməz".*

Bu deyimlər xalqın hüquq fəlsəfəsidir. Dövlət anlayışı kağızda yox, sözün içində qorunub. Folklor - xalqın şifahi konstitusiyasıdır.

Prezidentin "dil təkcə kommunikasiya vasitəsi deyil" fikri əslində folklorun dil kimi funksiyasını təsdiqləyir. Çünki folklor dili kimliyi qoruyur, yaddaşı ötürür, milli "biz" şüurunu formalaşdırır. Bu, filoloji yox, strateji həqiqətdir.

Dilin saflığı - Folklorun qorunması deməkdir. Prezident İlham Əliyev çıxışında Azərbaycan dilinin saflığının qorunmasını xüsusi vurğulayır. Burada məsələ sadəcə yad sözlərin işlədilməməsi deyil, söhbət dilin öz daxili yaradıcı gücünün qorunmasından gedir.

Azərbaycan dili obrazlı, metaforik, emosional və folklor qatları ilə zəngindir. Xalq düşüncəsi hər yeni anlayış üçün söz yarada bilib. "Gözə gəlmək", "ürəyi dağa dönmək", "sözün canı" kimi ifadələr yalnız dil nümunəsi yox, psixoloji və fəlsəfi modellərdir.

Folklor dili əsrlər boyu bu saflığın laboratoriyası olub. Atalar sözləri dilin özünü yad təsirdən qoruma mexanizmidir:

- "Söz var kəsdirər başı, söz var kəsər savaşı";
- "Dil yarası qılınc yarasından ağırdır".

Prezidentin ziyalılara ünvanladığı çağırış əslində folklor yaddaşına sədaqət çağırışıdır. Çünki yad sözlər yalnız dilə yox, yaddaşa da yadlaşma gətirir.

Yaddaşsız elm olmur. Prezident İlham Əliyevin nitqində mühüm strateji xətt var: dil - elmin əsasıdır. Elmi inkişaf yalnız texnologiya ilə ölçülmür. Əgər elm ana dilində düşünmürsə, o, milli olmur. Folklor dili burada yenə əsas rol oynayır. Çünki folklor abstrakt düşüncənin ilkin formasıdır. Tapmacalar məntiq qurur, nağıllar səbəb-nəticə əlaqəsini öyrədir, bayatılar konseptual ümumiləşdirmə bacarığı yaradır.

*Kim xalqından dərs alar,*
*Allahı razı salar.*
*Bir söz var min mənalı,*
*Min söz var izsiz qalar.*

Bu bayatı xalq müdrikliyinin sadə poetik ifadəsi deyil. O, dil-xalq-yaddaş-məsuliyyət münasibətlərini tənzimləyən dərin ideoloji formuladır. Prezident İlham Əliyevin dil haqqında fikirlərində əsas yer tutan anlayışlar - milli yaddaş, ana dilində düşünmək, sözə məsuliyyət, dilin mənəvi gücü - bu dörd misrada folklor kodu şəklində cəmlənib.

**1. "Kim xalqından dərs alar"** - bilik mənbəyinin milli kodu

Bayatının ilk misrası ideoloji baxımdan açar nöqtədir. Burada bilik və hikmətin mənbəyi universitet, kitab və ya xarici model yox, xalqın özü kimi təqdim olunur. Bu, Prezident İlham Əliyevin tez-tez vurğuladığı mühüm ideya ilə üst-üstə düşür: inkişaf yalnız kənardan alınan biliklə deyil, milli təcrübəyə söykənən düşüncə ilə mümkündür.

"Xalqdan dərs almaq" - folklorun, dil yaddaşının, tarixi təcrübənin öyrənilməsi deməkdir. Bu yanaşma göstərir ki, ana dili yalnız danışıq aləti deyil, tədris məkanıdır. Dil burada müəllim rolunu oynayır.

**2. "Allahı razı salar"** - dilin mənəvi legitimliyini bildirir.

İkinci misra məsələni yalnız dünyəvi yox, mənəvi səviyyəyə qaldırır. Xalqdan dərs alan insan təkcə cəmiyyət qarşısında yox, ali mənəvi ölçü qarşısında da doğru mövqedə dayanmış olur. Bu, Prezident İlham Əliyevin dilə verdiyi mənəvi statusla səsləşir: dil milli sərvət olmaqla yanaşı, əxlaqi məsuliyyət daşıyıcısıdır.

Burada dilin qorunması sadəcə mədəni borc deyil, vicdan borcu kimi təqdim olunur. Ana dilinə sədaqət - mənəvi saflığın göstəricisidir.

**3. "Bir söz var min mənalı"** - dilin semantik gücü deməkdir.

Bayatının üçüncü misrası dilin keyfiyyətini kəmiyyətə qarşı qoyur. Bu, Prezident İlham Əliyevin "dil təkcə ünsiyyət vasitəsi deyil" fikrinin folklor müstəvisində açılımıdır. Burada söz informasiya daşıyıcısı deyil, mənalar sistemi kimi təqdim olunur.

"Bir sözün min mənalı olması" - Azərbaycan dilinin, xüsusilə folklor dilinin əsas xüsusiyyətidir. Atalar sözləri, deyimlər, bayatılar az sözlə böyük mənəvi, fəlsəfi və sosial yüklər daşıyır. Bu, dilin daxili intellektual potensialını göstərir.

Prezidentin ana dilində elmin və düşüncənin inkişafı ilə bağlı fikirləri də bu məqamla üst-üstə düşür: dərin fikir üçün çox söz yox, doğru söz lazımdır.

**4. "Min söz var izsiz qalar"** - məsuliyyətsiz danışığın ideoloji tənqididir.

Son misra müasir dövr üçün xüsusilə aktualdır. Burada sözün məsuliyyətsiz çoxaldılması, məzmunun isə azalması tənqid olunur. Prezident İlham Əliyevin dil siyasətində mediaya, ziyalılara, elm adamlarına ünvanlanan çağırışlar məhz bu təhlükəyə qarşı yönəlib.

Bu misra açıq şəkildə bildirir:

- çox danışmaq yaddaş yaratmır,
- dəyərli söz qalır, boş söz itib gedir.

Bu, dilin saflığının qorunması ideyasının folklor ifadəsidir. Yad, düşünülməmiş, köksüz sözlər "izsiz qalır", çünki onların arxasında xalq yaddaşı yoxdur.

**5. Bayatının ideoloji ümumiləşməsi.** Bu bayatı Prezident İlham Əliyevin dil strategiyasının əsas tezislərini folklor dili ilə ifadə edir:

- Bilik milli yaddaşdan doğmalıdır;
- Ana dili mənəvi və intellektual məsuliyyətdir;
- Dilin gücü çoxluğunda yox, dərinliyindədir;
- Söz yaddaşla bağlıdırsa yaşayır, yaddaşsızdırsa itib gedir.

Burada dil həm elm dili, həm əxlaq dili, həm də dövlətçilik düşüncəsinin əsası kimi təqdim olunur.

**6. Nəticə:** Bayatı - sözə məsuliyyət manifestini irəli sürür. Yəni bu bayatı sadə xalq nəsihəti deyil. O, sözlə davranma etikası, dil fəlsəfəsi və milli yaddaş konsepsiyasıdır. Prezident İlham Əliyevin dil haqqında fikirləri bu bayatının müasir siyasi və ideoloji təzahürüdür.

Bayatı bizə açıq mesaj verir: Xalqdan gələn söz yaşayır. Yaddaşdan doğan fikir qalır. Dil məsuliyyətlə danışanda, millət də tarixdə qalır.

Bu bayatı dilin semantik dərinliyini göstərir. Elmi terminologiyanın milli dildə inkişafı üçün folklor düşüncəsi zəngin mənbədir. Ana dilində elm - milli təhlükəsizliyin intellektual qatıdır.

**Ramazan QAFARLI**
**AMEA Folklor İnstitutunun "Dədə Qorüud" şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor**

# Ana dilimizin saflığı: tarixi köklər və müasir çağırışlar

**21 Fevral - Beynəlxalq Ana Dili Günü ərəfəsində ana dilimizin saflığının qorunması məsələsi həm tarixi köklərimizə sadiqlik, həm də gələcək milli varlığımızın təminatı baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycan dilinin tarixi leksik qatında qorunub saxlanılan türk mənşəli arxaizmlər yalnız keçmişin dili deyil, eyni zamanda, müasir terminoloji ehtiyacların milli əsaslarla qarşılanması üçün ən etibarlı və mühüm mənbədir. Bu sözlər zamanla aktiv danışıqdan çıxsa da, öz semantik tutumunu, dərin fəlsəfi mahiyyətini və geniş ifadə imkanlarını itirməyib. Onların müasir Azərbaycan dilində yenidən işlək hala gətirilməsi dilin saflığının qorunmasına, milli söz ehtiyatının bərpasına və ən əsası, alınma terminlərdən asılılığın minimuma endirilməsinə xidmət edir. Bu proses dilimizi yad təsirlərdən təmizləməklə yanaşı, ona öz daxili, tarixi imkanları hesabına inkişaf etmək gücü verir.**



Prezident İlham Əliyevin Azərbaycan dilinin strateji təhlükəsizlik konsepsiyasına dair baxışları bu məsələni sırf filoloji müstəvidən çıxararaq strateji-ideoloji bir mahiyyətə yüksəldir. Dövlətimizin başçısının 2025-ci ilin yekunlarına dair müsahibəsində və 2026-cı ilin yanvarındakı çıxışlarında vurğuladığı kimi, Azərbaycan dili dövlətçiliyin əsas atributlarından biri və milləti millət edən fundamental amildir. Dilin qorunması milli kimliyin qorunması ilə birbaşa şərtlənir; çünki dilin deqradasiyası milli şüurun zəifləməsi və dövlətçilik prinsiplərinin sarsılması deməkdir. Bu baxımdan, ana dilinin saflığı məsələsi artıq bir ideoloji təhlükəsizlik məsələsidir. Xarici sözlərin dilə nəzarətsiz daxil olması zənginləşmə deyil, milli dil strukturunun pozulmasıdır ki, bu da milli kimliyi "damcı-damcı" sarsıdır və uzunmüddətli perspektivdə ciddi təhlükələr yaradır.

Dilin saflığının qorunmasında "əcdadlarımızın əmanəti" anlayışı hər bir vətəndaşın qarşısında mənəvi borc kimi dayanır. Xalqımız tarixən müxtəlif imperiyaların tərkibində yaşamasına baxmayaraq, öz ana dilini qoruyub saxlamaqla böyük bir tarixi müqavimət və mənəvi direniş nümunəsi göstərib. Bu gün müstəqil dövlətin vətəndaşları olaraq ana dilini qorumaq məsuliyyəti daha da artıb. Onun sözlərinə görə, gənc nəsil dili müstəmləkə dövründə yaşayan nəsillərdən daha məsuliyyətlə qorumalıdır. Xüsusilə müstəmləkəçilik psixologiyasının fəsadlarından xilas olmaq, ana dilində danışmağı bir üstünlük və qürur mənbəyi kimi dərk etmək vacibdir. Xarici dildə danışmağı intellektual üstünlük hesab etmək milli natamamlıq kompleksi kimi qiymətləndirilir. Prezidentin qeyd etdiyi kimi, elmin ana dilində inkişafı terminoloji müstəqilliyi təmin edən əsas şərtdir. Əgər elmi dilimiz Azərbaycan dili olmasa, terminoloji sahə daim xarici dillərin və "yumşaq güc" alətlərinin təsiri altında qalacaq.

Bu strateji hədəflərə çatmaq üçün dilçilik elmi yalnız mövcud normanı təsvir etməklə kifayətlənməməli, dilin tarixi qatlarını dərindən araşdıraraq unudulan milli sözləri üzə çıxarmalıdır. Məsələn, "məktub" yerinə Aşıq Qurbani irsində rast gəlinən, həm də rəsmi müraciət anlamını daşıyan "yazğu" sözü, ərəb mənşəli "təqdim etmək" yerinə klassik mətnlərimizdə ("Kitabi-Dədə Qorqud", Nəsimi, Füzuli yaradıcılığında) ardıcıl müşahidə olunan "sunmaq" feili dilimiz üçün təbii alternativlərdir. Eləcə də "qanun" anlayışı üçün türk dövlətçilik düşüncəsini əks etdirən "törə", "alim" üçün "bilgə", "elm" üçün isə "bilim" kimi sözlərin işlədilməsi dilə milli konseptual çalar qazandırır. Mənəvi sahədə "şəxsiyyət" və "kamil insan" anlayışlarını ifadə edən "ərən" sözü dilimizin fəlsəfi dərinliyini nümayiş etdirir. Hərbi və inzibati sahədə isə "mühafizəçi" əvəzinə "qorçu", "komendant" əvəzinə "qalabəyi" kimi dəqiq və milli ənənəyə uyğun leksik vahidlər mövcuddur.

Nəticə etibarilə dilin saflığının qorunması yalnız inzibati qadağalarla deyil, tarixi yaddaşın bərpası və elmi əsaslandırma ilə mümkündür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, AMEA-nın, xüsusən də Dilçilik İnstitutunun Azərbaycan dilinin inkişafında xüsusi rolu və məsuliyyəti var. Bizim vəzifəmiz "tarixi norma" anlayışını elmi dövriyyəyə gətirmək, klassik Azərbaycan türkcəsinin rəqəmsal korpusunu yaratmaq və milli leksik alternativlər bankını formalaşdırmaqdır. Dilimiz bizim milli müdafiə xəttimiz, mədəni suverenliyimizin əsas dayağı və gələcək müstəqilliyimizin qarantıdır. Bu xətti qorumaq hər bir vətəndaşın, xüsusən də ictimai rəyə təsir edən ziyalıların, jurnalistlərin və dilçi alimlərin mənəvi və strateji borcudur.

Arxaik leksika dilin inkişafına mane olan "köhnə element" deyil, əksinə, müasir Azərbaycan dilinin milli ruhunu gücləndirən etibarlı bir təməldir. Bizim vəzifəmiz bu sözləri elmi şəkildə sistemləşdirərək müasir ünsiyyətə qaytarmaqdır. Çünki ana dilimizin saflığı bizim milli kimliyimizin və müstəqilliyimizin ən böyük rəmzidir.

**Xədicə HEYDƏROVA**
**AMEA Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, dosent**

# ALİM VƏ VƏTƏNDAŞ

## Professorun yubileyinə

**Deyirlər ki, zaman öz tələblərini bizə diqtə edir, lakin daim peşəsinə və həyat seçiminə sadiq qalan insanlar zamanın qanunlarına o qədər də uyğunlaşmağa tələsmirlər. Belə insanlardan biri bizim həmkar, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor İradə Səid qızı Bağırovadır. Onun əsas keyfiyyətləri məqsədyönümlük, intizamlıq, dünyanı dəyişmək istəyi xarakterində və fəaliyyətində parlaq şəkildə özünü biruzə verir.**



Yubiley gec tez hamı üçün olur, lakin alim yubileyi yalnız təbriklər almaq deyil, həm də keçmişin, elmi yolun, əldə olunan nailiyyətlərin, şəxsiyyətin cəmiyyətdə dəyərləndirilməsi üçün bir fürsətdir. Yubilyarımızın adı həm akademik mühitdə, həm də daha geniş elmi ictimaiyyətdə - dünya tarixi, Qafqaz tarixi və Azərbaycanın XX əsrinin əvvəlləri üzrə tədqiqatlar sahəsində yaxşı tanınır. Onun elmi, təşkilati və ictimai fəaliyyəti fərdi tədqiqat enerjisinin elmə və cəmiyyətə xidmətlə birləşməsinin gözəl nümunəsidir.

Gənc yaşlarından İradə xanım tarix elminə dərin maraq göstərirdi. Onun bu həvəsi təsadüfi və keçəri olmadı və gələcək həyatını müəyyən edən bir məqsədə çevrildi. Arzusu istedadlı gənc qızı ali təhsil almaq ucun Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə, sonra isə Moskvaya gətirdi.

İradə Bağırovanın elmi dünyagörüşünün formalaşması postsovet məkanının ən güclü elmi məktəblərindən biri ilə - Moskva Dövlət Universitetində aldığı fundamental təhsil ilə bağlıdır. Burada qazandığı mənbəşünaslıq hazırlığı, metodoloji dəqiqlik, müqayisəli-tarixi yanaşma və akademik yazı mədəniyyəti onun sonrakı bütün elmi fəaliyyətinin əsasını təşkil etmişdir. Universitet illəri onun geniş tarixi proseslərə, beynəlxalq əlaqələrə, müqayisəli inkişaf modellərinə marağını gücləndirdi. Elmi fəaliyyətinin ilk mərhələsindən etibarən iki əsas xüsusiyyət diqqəti cəlb edirdi: regional tarixi qlobal kontekstdə şərh etmək və sənədli mənbələrə sistemli şəkildə söykənmək.

Bakıya qayıdanda İradə xanımın seçimi AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu oldu və burada o, Azərbaycanın görkəmli tarixçiləri ilə yanaşı çalışaraq, böyük elmi məktəb keçdi, artıq çalışmaq, axtarmaq, mübahisə və fikrini sübut etməyə hazır olan bir elm adamı kimi formalaşdı.

Uzun illər ərzində İradə Bağırovanın elmi və təşkilati fəaliyyəti Qafqaz tarixinin öyrənilməsi ilə bağlı olmuşdur. Bu istiqamətə rəhbərlik etdiyi dövrdə o, qafqazşünaslıq tədqiqatlarının mövzu dairəsinin genişlənməsinə, yeni mənbələrin elmi dövriyyəyə cəlb olunmasına və fənlərarası yanaşmaların tətbiqinə ciddi töhfə vermişdir. Siyasi tarix, beynəlxalq münasibətlər, etnosiyasi proseslər və regional dəyişikliklər onun rəhbərliyi altında aparılan tədqiqatların əsas xəttini təşkil etmişdir.

Bu mərhələdə Qafqaz tarixinin daha geniş - Yaxın Şərq, Avrasiya və ümumdünya prosesləri kontekstində təqdim olunması xüsusi əhəmiyyət kəsb etmişdir. Bu yanaşma regionu təcrid olunmuş məkan kimi deyil, qarşılıqlı təsirlərin fəal iştirakçısı kimi göstərməyə imkan vermişdir.

Hazırda İnstitutda dünya tarixi istiqamətinə rəhbərlik edən professor İ.Bağırova bu geniş baxış modelini ardıcıl şəkildə inkişaf etdirir. Onun konseptual yanaşmasında dünya tarixi ayrı-ayrı regionların mexaniki cəmi deyil, siyasi, intellektual və mədəni qarşılıqlı təsirlərin vahid sistemidir.

İradə Bağırovanın elmi maraqlarında Azərbaycanın XX əsrin əvvəlləri tarixi xüsusi yer tutur. Bu dövr siyasi çevrilişlər, partiya və təşkilatların formalaşması, ictimai ideologiyaların toqquşması və dövlətçilik axtarışları ilə səciyyələnir. Onun tədqiqatlarında bu mərhələ həm milli tarix çərçivəsində, həm də imperiyaların böhranı və beynəlxalq sistemin dəyişməsi fonunda təhlil olunur.

Alimin bu sahədəki araşdırmaları geniş arxiv materiallarına, diplomatik sənədlərə, dövrün mətbuatına və xatirə ədəbiyyatına əsaslanır. Mənbələrin müqayisəli və tənqidi təhlili hadisələrin çoxplanlı mənzərəsini yaratmağa imkan verir və nəticələrin elmi etibarlılığını artırır.

Professor İradə Bağırovanın elmi yaradıcılığı çoxşaxəliliyi və sistemliliyi ilə seçilir. Onun tədqiqatları siyasi tarix, partiya hərəkatları, liberal düşüncə, regional münasibətlər və islahatçılıq proseslərini əhatə edir. Müəllifi və həmmüəllifi olduğu monoqrafiyalar, eləcə də məsul redaktoru kimi iştirak etdiyi kollektiv nəşrlər müasir Azərbaycan tarixşünaslığında mühüm yer tutur. Bununla yanaşı professor İ.Bağırova Tarix və Etnologiya institutunda fəaliyyət göstərən müdafiə şuralarının üzvü kimi fəal iştırak edir və ölkəmizin tarix elminə yeni kadrlarının gəlməsi prosesində də öz sözünü deyir.

Onun ən çox istinad olunan və cəmiyyətdə böyük maraq doğuran tədqiqatlarından biri - "Azərbaycanın XX əsrin əvvəllərində siyasi partiya və təşkilatları (1900-1917)" monoqrafiyasıdır. Bu əsərdə XX əsrin əvvəllərində Azərbaycanda siyasi təşkilatlanma, partiya strukturları və ideoloji platformalar geniş mənbə bazası əsasında təhlil olunur. Mövzunun sistemli tədqimatı bu kitabı sahə üzrə əsas istinad mənbələrindən birinə çevirmişdir.

Digər mühüm tədqiqat - "XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda liberal cərəyanın inkişafı" monoqrafiyasıdır. Bu əsərdə liberal ideyaların yayılması, ictimai-siyasi fikir tarixində yeri və dəyişikliklər dinamikası araşdırılır.

Professor İ.Bağırova, həmçinin "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920)" kollektiv monoqrafiyasının müəlliflərindən biri olmuş, çoxcildlik "Azərbaycan tarixi" nəşrinin bir neçə cildində müəllif və redaksiya heyətinin üzvü kimi iştirak etmişdir. Bu nəşrlər akademik tarix yazıcılığının fundamental layihələri sırasında yer alır.

Onun elmi-redaktə fəaliyyəti də xüsusi qeyd olunmalıdır. "Şimal-Qərbi Azərbaycan tarixi", "Azərbaycan-Gürcüstan münasibətləri (XVIII-XXI əsrlər)" kimi kollektiv monoqrafiyalarda həmmüəllif və elmi redaktor kimi çıxış etmişdir. Bundan əlavə, UNESCO xətti ilə nəşr olunmuş və Qafqaz ilə Mərkəzi Asiyada ictimai-mədəni islahatçılıq proseslərinə həsr edilmiş beynəlxalq kollektiv monoqrafiyaların məsul redaktoru və müəlliflərindən biri olmuşdur. Bu nəşrlər regionun müqayisəli tarixinin öyrənilməsi baxımından mühüm elmi platforma yaratmışdır.

Ümumilikdə alimin onlarla elmi əsəri, o cümlədən xaricdə nəşr olunmuş tədqiqatları mövcuddur ki, bu da onun beynəlxalq elmi dövriyyədə fəal iştirakını göstərir. Professor İ.Bağırova AMEA üzrə beynəlxalq bazalarda adı daim keçən müəlliflərdəndir.

İradə Bağırovanın fəaliyyətinin mühüm istiqamətlərindən biri beynəlxalq elmi əməkdaşlıqdır. O, xarici elmi mərkəzlər və universitetlərlə davamlı əlaqələr qurmuş, beynəlxalq konfrans və layihələrdə fəal iştirak etmişdir. Alimin 80-dən artıq elmi məruzələri xarici konfrasların tribunalarından səslənib. Onu da qeyd etmək lazımdır ki, Azərbaycandan kənarda onun çıxışları və məruzələri elmimizin, dövlətimizin və dövlətçiliyimizin möhkəmlənməsinə yönəlmiş və yüksək səciyyəviliyi ilə seçilmişdir. Onun beynəlxalq fəaliyyəti metodoloji yanaşmaların, tədqiqat üsullarının və interpretasiya çərçivələrinin qarşılıqlı müzakirəsinə əsaslanır. Bu isə sosial və humanitar elmlər üçün xüsusi əhəmiyyət kəsb edir.

Professor İ.Bağırova güclü elm təşkilatçısı kimi də tanınır. Şöbə rəhbəri kimi o, tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi, kollektiv layihələrin koordinasiyası və gənc tədqiqatçıların elmi fəaliyyətə cəlb olunmasında mühüm rol oynayır. Onun rəhbərliyi altında elmi keyfiyyət, metodoloji şəffaflıq və mənbəyə söykənən yanaşma əsas prinsip kimi götürülür. İradə xanımın rəhbərliyi altında onlarla fəlsəfə və elmlər doktoru hazırlanıb və onlar Respublikamızın ali məktəblərində və elmi mərkəzlərdə çalışırlar.

O, redaksiya heyətlərində, elmi şuralarda və ekspert qruplarında da fəal iştirak edir ki, bu da akademik nəşrlərin səviyyəsinin yüksəlməsinə xidmət edir.

Alimin fəaliyyətində ictimai fəallıq və maarifçilik də mühüm yer tutur. Tarixi biliklərin cəmiyyətə düzgün və əsaslandırılmış şəkildə çatdırılması, elmi mövqenin qorunması və faktlara söykənən yanaşmanın təşviqi onun çıxış və yazılarının əsas xəttini təşkil edir. Tarixçinin cəmiyyət qarşısında məsuliyyəti prinsipinə sadiqlik onun mövqeyinin səciyyəvi cəhətidir. Buna görə də professor İ.Bağırovanı biz müxtəlif elmi və ictimai-siyasi debatlarda görə bilərik. Tarixçi alim kimi o, burada ölkəmizin maraqlarını təmkinlə müdafiə edir, çıxışlarında milli yaddaşa və tarixi irsimizə söykənən mövqe ortaya qoya bilir.

Bir çox gənc tədqiqatçı üçün İradə Bağırova yalnız rəhbər deyil, həm də elmdə istiqamət verən alimdir. Mövzu seçimi, metodoloji istiqamətləndirmə və mətn üzərində tələbkar iş elmi məktəbin formalaşmasına xidmət edir. Elmi dürüstlük və mənbəyə hörmət onun yetişdirdiyi tədqiqatçılar üçün əsas meyarlardandır.

Professor İradə Bağırovanın elmi və ictimai fəaliyyəti elmə sədaqətin, metodoloji prinsipiallığın və vətəndaş mövqeyinin nümunəsidir. Onun tədqiqatları, redaktə etdiyi nəşrlər və təşkilati fəaliyyəti müasir tarixşünaslığın inkişafına mühüm töhfə verir.

Yubiley münasibətilə həmkarları, dostları və tələbələri ona möhkəm cansağlığı, yeni elmi ideyalar, uğurlu layihələr və gələcək yaradıcılıq nailiyyətləri arzulayırlar. Sonda demək istərdim ki, elm üçün sərhəd və məhdudiyyət yoxdur, yaş isə sadəcə rəqəmdir, bilik, elmdə və ürəklərdə qoyduğunuz iz isə, İradə xanım, əbədidir.

**Nərgiz AXUNDOVA**
**AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, akademik**

## YENİ NƏŞRLƏR

### Azərbaycan - Yaponiya ədəbi əlaqələrinə həsr olunmuş yeni fundamental monoqrafiya

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi şurasının qərarı ilə çapa tövsiyə edilmiş "Azərbaycan - Yaponiya əlaqələri: ədəbi körpülər, mədəni dialoqlar" adlı monoqrafiya işıq üzü görüb.**




Monoqrafiyanın müəllifi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan - Asiya ədəbi əlaqələri şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülnar Yunusovadır.

Kitabda Azərbaycan - Yaponiya ədəbi əlaqələrinin formalaşma mərhələləri, tarixi inkişaf dinamikası və çağdaş vəziyyəti kompleks elmi yanaşma əsasında araşdırılır. Azərbaycan və Yaponiya kimi fərqli mədəniyyətə mənsub xalqlar arasında yaranmış ədəbi, mədəni və ideya əlaqələri əhatəli şəkildə öyrənilir. Tədqiqatda bədii tərcümənin rolu, Azərbaycan ədəbiyyatında Yaponiya mövzusunun təşəkkülü, yapon şeirinin təsiri, eləcə də publisistika, poeziya, memuar və səfərnamələrdə Yaponiya obrazının tədqimatı elmi-nəzəri baxımdan ümumiləşdirilir.

"Azərbaycan - Yaponiya əlaqələri: ədəbi körpülər, mədəni dialoqlar" kitabı Azərbaycan ilə Yaponiya arasında ədəbi və mədəni münasibətləri kompleks yanaşma əsasında sistemli şəkildə araşdıran ilk fundamental tədqiqatlardan biridir.

Nəşrin elmi məsləhətçisi akademik İsa Həbibbəyli, elmi redaktoru filologiya elmləri doktoru, professor Bədirxan Əhmədlidir. Rəyçilər - Türkiyəli alim, professor Ali Merthan Dündar və filologiya elmləri doktoru, dosent Bəsirə Əzizəliyevadır.

### Akademik İsmayıl Hacıyevin kitabı türk dilində

**Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Muhteşem binliklerin şanlı 100 yılı" adlı türk dilinə tərcümə kitabı işıq üzü görüb.**




Nəşr Türkiyə Respublikasının Sivas şəhərində fəaliyyət göstərən "Yönetim Yayınları" nəşriyyatı tərəfindən çap olunub. Kitabın tərcüməçisi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin əməkdaşı Əli Tağıyevdir.

Kitabda XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin ictimai-siyasi vəziyyəti, regiona qarşı irəli sürülən ərazi iddiaları, mürəkkəb beynəlxalq münasibətlər sistemi çərçivəsində Naxçıvanın siyasi-hüquqi statusunun müəyyənləşdirilməsi prosesi elmi əsaslarla və sistemli şəkildə təhlil olunub.

Nəşrdə Naxçıvanın muxtariyyət statusunun formalaşması, Moskva müqaviləsi və Qars müqaviləsi kontekstində hüquqi-siyasi məsələlər, bölgədə sovetləşmə prosesi, Araz-Türk Respublikasının fəaliyyəti, Cənubi Qafqazda müstəqil dövlətlərin təşəkkülü, eləcə də beynəlxalq güclərin regionla bağlı siyasəti geniş elmi təhlil obyektinə çevrilib. Müəllif tarixi hadisələri müqayisəli təhlil, mənbəşünaslıq və siyasi-hüquqi yanaşma metodları əsasında araşdıraraq Naxçıvanın dövlətçilik tarixində mühüm mərhələləri konseptual baxımdan ümumiləşdirib.

Kitab Naxçıvanın yüzillik inkişaf yolunun tarixi faktlar və elmi arqumentlər əsasında sistemləşdirilmiş şəkildə təqdim olunması baxımından həm geniş oxucu auditoriyası, həm də tədqiqatçılar üçün əhəmiyyətli mənbədir.

### "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyasının VIII cildi

**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təsis etdiyi "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyasının VIII cildi - Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami" monoqrafiyası "Elm və təhsil" nəşriyyatında çapdan çıxıb.**




İlk nəşrindən təqribən 75 il sonra daha mükəmməl şəkildə yenidən işıq üzü görən sözügedən monoqrafiya mühacirət ədəbiyyatşünaslığında orta əsrlər ədəbiyyatımız haqqında ən sanballı araşdırma olmaqla yanaşı, dünya nizamişünaslığının mühüm nailiyyətlərindəndir. Müəllifin həm Şərq, həm də Avropa tarixinə, mədəniyyətinə, ədəbiyyatına, ictimai-siyasi, fəlsəfi-estetik fikrinə dair ensiklopedik bilik sahibi olması, zəngin mənbələr əsasında dahi söz ustasının poetik irsini müxtəlif yönlərdən yüksək elmi-nəzəri səviyyədə araşdıraraq, Nizami şeirinin dərin qatlarına nüfuz edə bilməsi əsərin uğurunu şərtləndirmiş amillərdəndir.

Cildi nəşrə hazırlayanlar filologiya elmləri doktoru Nikpur Cabbarlı, elmi işçilər Aysel Əfəndiyeva, Lalə Paşayeva, məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Zəhra Allahverdiyeva, redaktoru isə Hülya Cəbiyevadır.

# Özbəkistanlı professor Ədəbiyyat İnstitutunda

**Özbəkistanın Əndican Universitetinin Filologiya fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor Bahadır Rəhman Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun qonağı olub.**



Görüşdə institutun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, dosent Mehman Həsənli, institutun baş elmi işçisi, özbəkşünas alim Yaşar Qasımbəyli, Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, professor Bədirxan Əhmədli iştirak ediblər.

İnstitutun direktor müavini, fil.e.d. Mehman Həsənli Azərbaycan-Özbəkistan əlaqələrinin zəngin tarixə malik olduğunu və müasir dövrdə bu əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. O, Ədəbiyyat İnstitutunda Türk dünyasının fəxri olan Əlişir Nəvaidən başlayaraq müasir dövrə qədər özbək ədəbiyyatının öyrənildiyini, bu barədə çoxsaylı kitab və məqalələrin yazıldığını, hər il konfrans və elmi sessiyaların keçirildiyini bildirib.

Filologiya elmləri doktoru, özbək ədəbiyyatının tanınmış tədqiqatçısı Yaşar Qasımbəyli Əndican Universiteti ilə Ədəbiyyat İnstitutunun birgə tədbirlər keçirməsinin, ortaq layihələr icra etməsinin faydalı olcağından danışıb.

Görüşdə çıxış edən Əndican Universitetinin Filologiya fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor Bahadır Rəhman Ədəbiyyat İnstitutu ilə Əndican Universitetinin yerinə yetirə biləcəyi ortaq tədqiqatlarla bağlı fikir və düşüncələrini bölüşüb.

# Türk dillərinin qrammatik sistemində köməkçi nitq hissələrinin yeri

**AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsi bütün dövrlərdə dünya türkologiya elminə dəyərli töhfələr vermişdir. Müasir dövrümüzdə də Türk dilləri şöbəsi respublikamızda aparılan türkoloji araşdırmaların mərkəzində dayanır. Şöbənin əməkdaşları ölkəmişdə yaranan türkoloji ənənəni yaşatmağa və davam etdirməyə çalışırlar. Filologiya üzrə fəlsəfə doktoru Dilbər Vətən qızı Camalinin oxuculara təqdim etdiyi "Türk dillərində köməkçi nitq hissələri" əsəri də (Bakı: Elm və təhsil, 2025, 180 səh.) bu sahədəki sanballı tədqiqatlardandır.**




Türkologiyanın aktual və daim mübahisə doğuran problemlərindən biri türk dillərində nitq hissələrinin təsnifatı, xüsusən də köməkçi nitq hissələrinin statusu, sayı, semantik-qrammatik xüsusiyyətləri və tarixi inkişaf yoludur. Bu baxımdan "Türk dillərində köməkçi nitq hissələri" adlı monoqrafiya türkoloji elmin mühüm və boşluq hissələrindən birini əhatə edən fundamental tədqiqat kimi diqqəti cəlb edir.

Müəllif monoqrafiyada müasir türk dillərində işlənən köməkçi nitq hissələrini yalnız sinxron baxımdan deyil, tarixi-müqayisəli aspektdə, qədim türk yazılı abidələrinin materialları əsasında araşdırmışdır. Monoqrafiyanın mühüm üstünlüklərindən biri köməkçi nitq hissələrinin tədqiqi tarixinin ardıcıl və əhatəli şəkildə təqdim edilməsidir.

Əsərin əsas bölmələrindən biri qədim türk yazılı abidələrində işlənən köməkçi nitq hissələrinin tədqiqinə həsr olunmuşdur. Müəllif göstərir ki, bağlayıcılar, qoşmalar və ədatlar qədim türk dilində artıq formalaşmış qrammatik vahidlər kimi çıxış etmiş, bir çox hallarda ilkin leksik mənalarını qismən və ya tam itirərək köməkçi funksiyaya keçmişlər.

Monoqrafiyada qoşmalar, ədatlar, bağlayıcılar, modal sözlər, nidalar, vokativ sözlər, təqlidi sözlər kimi köməkçi nitq hissələri əsas qruplar üzrə sistemli şəkildə tədqiq olunur: Hər bir qrup ayrıca bölmədə həm semantik-qrammatik, həm də funksional baxımdan təhlil edilir.

Monoqrafiyanın elmi yeniliyi ilk növbədə köməkçi nitq hissələrinin türk dilləri üzrə sistemli, tarixi-müqayisəli və funksional təhlilinin verilməsində özünü göstərir. Əsər yalnız nəzəri baxımdan deyil, tədris, leksikoqrafiya, tərcümə və dilin standartlaşdırılması baxımından da mühüm praktik əhəmiyyətə malikdir.

Nəticə hissəsində müəllif haqlı olaraq vurğulayır ki, köməkçi nitq hissələrinin öyrənilməsi türk dilləri arasındakı oxşar və fərqli cəhətlərin, eləcə də bu dillərin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət edir. Monoqrafiyanı oxuduqca müəllifin nə qədər geniş türkoloji biliyə malik olduğunun şahidi olursan. Dilbər Camali əsəri yazmamışdan öncə demək olar ki, bütün türk dillərindəki köməkçi nitq hissələrinin tədqiqi tarixini araşdırmış, eyni zamanda türk dillərində bu nitq hissələrinin fərqli cəhətlərin müqayisəli şəkildə öyrənmişdir.

Ölkəmizdə çox az sayda olan qədim türk dili mütəxəssislərindən biri kimi Dilbər Camalinin tədqiqatları əsasən Orxon-Yenisey abidələrinin araşdırılması üzərində cəmlənmişdir. Bəhs olunan monoqrafiyasında da müəllif hər bir köməkçi nitq hissəsinin qədim türk dilindəki işlənmə mövqeyini araşdırmışdır.

Dilbər Vətən qızı Camalinin "Türk dillərində köməkçi nitq hissələri" monoqrafiyası müasir türkoloji elmdə mühüm boşluğu dolduran, elmi sanballı və zəngin faktoloji bazası ilə seçilən fundamental tədqiqatdır. Əsər dilçi alimlər, türkologiya üzrə tədqiqatçılar, ali məktəblərin filologiya fakültələrinin tələbələri, magistrantlar və doktorantlar üçün etibarlı elmi mənbə olmaqla yanaşı, türk dillərinin qrammatik quruluşunun daha dərindən anlaşılmasına xidmət edir.

**Qətibə MAHMUDOVA**
**filologiya elmləri doktoru, dosent**
**Elnarə ƏLİYEVA**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

**ELAN-MÜSABİQƏ**

